11_27 IYUl-QARA.qxd 3/29/2024 11:01 AM Page 1


# UNİKAL

№11 (2193) 29 mart 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Qərb "Ermənistan kartı" ilə regionda gərginlik yaratmağa çalışır



Səh.9

# Heydər Əsədov rektor postunu da itirə bilər

*Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyevin sərəncamı ilə Elçin Babayev yenidən Bakı Dövlət Universitetinin (BDU) rektoru təyin edilib.Bəs görəsən, Elçin Babayevin yenidən həmin vəzifəyə təyin olunmasına niyə zərurət yaranıb?*

*Rektorun yenidən vəzifəyə təyin edilməsi Prezident İlham Əliyevin 10 dekabr 2018-ci ildə imzaladığı fərmandan irəli gəlir. Belə ki, sözügedən fərmana əsasən, Azərbaycanda rektorlar 5 il müddətinə təyin edilir (yeri gəlmişkən, Azərbaycanda qanunvericiliyin geriyə qüvvəsi olmadığı üçün sözügedən qayda 2018-ci ilin dekabr ayından əvvəlki rektorlara aid edilmir).*

*Qeyd edək ki, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev 2019-cu ilin martın 11-də təyin edilib. Artıq onun təyin edilməsindən 5 ildən çox vaxt keçib...*

Səh.8

## "Sənədsiz evlərlə bağlı ciddi addımlar atılmalıdır"



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, hazırda əmlak bazarında qiymətlərin necə olmasından, fərdi evlərə tələbatın necə dəyişəcəyindən, sənədsiz evlərin nə zaman sənədləşdirilə biləcəyindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## "Antiterror əməliyyatı zamanı və ondan sonrakı vaxtda mühüm işlər görülüb" - Əli Nağıyev



*Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəliyi ilə tarixi qələbənin əldə edildiyi Vətən müharibəsi dövründə düşmənin bütün cəbhələrdə həyata keçirməyə çalışdığı təxribatpozuculuq fəaliyyətinin, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində mümkün təhdidlərin qarşısının alınmasında...*

Səh.3

## Terrorizmlə mübarizədə vətəndaşlar milli dövlətçilik naminə birlik nümayiş etdirməlidirlər



*Rusiyada baş vermiş terror hadisəsi hər bir cəmiyyətdə dövlətin təhlükəsizliyinin və milli maraqların hər şeydən üstün tutulmasının vacibliyini bir daha ortaya qoydu. Artıq ictimai və dövlət maraqlarının müdafiəsi müasir dövrün ən mühüm şərtlərindən birinə çevrilib. İnternetin azad olduğu bir dövrdə bu...*

Səh.11

11_27 IYUl-QARA.qxd 3/29/2024 11:06 AM Page 2



# Elnarənin Röya ilə bağlı paylaşımı təəccübləndirdi



***Müğənni Elnarə Xəlilova uzun müddətdir qalmaqal yaşadığı Xalq artisti Röya Ayxanla bağlı paylaşımı ilə diqqət çəkib.***

Axşam.az xəbər verir ki, sənətçi həmkarının yaxın günlərdə konsert verəcəyini yazaraq, onun ünvanına təriflər yağdırıb. Elnarə Röyaya uğurlar arzulayaraq, dəstək olub.

Qeyd edək ki, "W-trio" qrupunun keçmiş solistləri uzun müddət qalmaqal yaşayıb. Son günlər isə E.Xəlilova Röya ilə bağlı qalmaqallı açıqlamaları ilə diqqət çəkib. Röya isə onun ünvanına "İnstaqramını mənə həsr edib" sözlərini söyləmişdi.

# "Şəbnəm ancaq toy bazarına çalışır" - Əməkdar artist

***"Şəbnəm yaxşı qızdır, üzərində çalışır. Amma toy bazarına çalışır onlar".***



"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Gülüstan Əliyeva "Tarixin bir günü" verilişində müğənni Şəbnəm Tovuzlunun ünvanına deyib. Sənətçi Şəbnəmin toy üçün çalışdığını söyləyib. G.Əliyeva aparıcı Tarix Əliyevin (Tolik) "Qəzənfər Abbasovun tələbəsi olub" sözlərinə "Bilirəm, Şəbnəmlə münasibətimiz gözəldir. Hərənin bir yolu var" cavabını verib.

Ş.Tovuzlu isə sözügedən açıqlamanı yayımlayaraq "Gözəl sənətkar, xanım, təki hər zaman sizlər bizim haqqımızda fikir bildirin" sözlərini bildirib.

# "Meyxanaçılar uşaqlarımızın dinini, tərbiyəsini pozur" - Elza Seyidcahan

***Əməkdar artist Elza Seyidcahan meyxanaçıları tənqid edib.***



Axşam.az xəbər verir ki, müğənni bu haqda yutubda yayımlanan "Şəbnəmlə iç üzü" layihəsində danışıb. O bildirib ki, meyxanaçılar qeyri-etik ifadələrdən istifadə edirlər: "Bəzi meyxanaçılar bizim uşaqlarımızın dinlərini, imanlarını, tərbiyələrini pozurlar. Onlar söz tapmayanda, küçə sözlərinə əl atırlar. Ana-bacılarını ortalığa qoyurlar. Vacib deyil ki, söz tapmırsansa, sus. Küçə sözlərini, pis vərdişlərlə bağlı sözləri uşaqlara aşılayırlar. Heç hərflərimizi, sözlərimizi də düzgün tələffüz etmirlər".




# Fərda yenidən "Komedixana"da

***Aktyor Fərda Xudaverdiyev bir müddət əvvəl uzaqlaşdığı "Komedixana"ya növbəti dəfə qayıdıb.***

"Unikal" xəbər verir ki, o, bununla bağlı sosial şəbəkədə paylaşım edib.

Qeyd edək ki, aktrisa Zarina Qurbanova, Xəyalə Quliyeva, aktyorlar Ənvər Abbasov, Mənsur Şərif, Həsrət Həsərtov və başqalarının yer aldığı "Komedixana"dan Fərda daha əvvəl iki dəfə ayrılıb.

# "Türkan özünü düzəldir" - Gülüstan Əliyeva



***"Bu gün gənc oxuyanlar çoxdur. Onların içərisində Türkan (Türkan Vəlizadəni nəzərdə tutur - red.) daha düzgün ifa tərzinə meyillidir".***

Bu sözləri Əməkdar artist Gülüstan Əliyeva "Tarixin bir günü" verilişində deyib.

Sənətçi Türkan Vəlizadəni digər müğənnilərdən daha üstün tutub: "Tükan daha çox düzgün oxumağa çalışır. Baxmayaraq ki, o, başqa formatda gəlib. Amma hazırda Türkan özünü düzəldir".

# "Məni 3 manatlıq şorbaya görə iftara dəvət etməyin"

***Müğənni Kərim Abasov onu iftar süfrəsinə dəvət edən həmkarlarına əsəbiləşib.***

Sənətçi bunun üçün açıqlama yayaraq, uzaq məsafəyə çağrılmasına etiraz edib: "Qonaqlığınızı Mərdəkan, Şüvəlan, Novxanı, Nasosnu kimi yerlərə salmayın. Tıxacla gəlib çıxmaq olmur. İş, güc başlayıb. Oruc olan adam əsəbi, gərgin olur. Deyirsən, zamanı gəlsin bir su içəsən ki, özünə gələsən. Çağırırsınız uzağa. Evimdən neçədə çıxım ki, gəlib çatım? Çağırmayın məni. 3 manatlıq şorba ilə doyan adamam. 3 manatlıq şorbaya görə 40 kilometr yol sürən deyiləm".

# "Səsin traktor kimi xırıldayır, oxuya bilmirsən"

***"O müğənni mənim adımı çəkməyib. Amma deyib ki, bu müğənnilər 70 yaşına çatıblar, amma hələ də toylara gedirlər".***

Bu sözləri Əməkdar artist Cavanşir Məmmədov "Həmin Zaur" verilişində deyib. Müğənni ad çəkmədən Zamiq Hüseynovun bir müddət əvvəl yaşlı sənətçilərin toya getməsini tənqid etməsinə reaksiya verib: "Ay qardaş, səsin traktor kimi xır-xır xırıldayır. Sənin 45 yaşına var, amma oxuya bilmirsən. Mən sənin üçün nə edim?".

Qeyd edək ki, Zamiq "40 ildir oxuyursan, 70 yaşında nə ömrün qalıb? Özünün nə iləsə saxlamağa imkanın yoxdur?" açıqlamasını verib.

11_27 IYUI-QARA.qxd 3/29/2024 11:07 AM Page 3



# "Fransa Ermənistanı yeni müharibəyə təhrik edir" - DTX rəisi



***Fransa regionda sülhə dəstək vermək əvəzinə 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğal altında saxlamış və xalqımıza qarşı soyqırımı cinayətləri törətmiş Ermənistanı silah-sursatla təmin edərək orada öz hərbi missiyasını yaratmaqla revanşist hisslərin alovlanmasına rəvac verir, Ermənistanı yeni müharibəyə təhrik edir, Cənubi Qafqazı yenidən müharibə meydanına çevirmək planını reallaşdırmağa çalışır.***

"Unikal" xəbər verir ki, bunu DTX rəisi general-polkovnik Əli Nağıyev rəsmi qəzetə müsahibəsində deyib.

O bildirib ki, Fransa hətta məqsədinə çatmaq üçün bütün bunlarla kifayətlənməyərək öz xüsusi xidmət orqanı nümayəndələri vasitəsilə müxtəlif şəxsləri məxfi əməkdaşlığa cəlb edib casus şəbəkəsi formalaşdırmaqla Azərbaycanın milli təhlükəsizliyinin zərərinə fəaliyyət göstərir: "Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bu fəaliyyət ifşa olunaraq dərhal və operativ şəkildə zərərsizləşdirilmiş, zəruri və adekvat addımlar atılmışdır. Əməliyyat şəraiti daim nəzarət altında saxlanılmaqla dövlətimizin təhlükəsizliyinə yönələn təhdidlərin qabaqlanması və qarşısının alınması istiqamətində müvafiq tədbirlər bundan sonra da görüləcəkdir. Biz yeni çağırışlara və bölgəmizdə cərəyan edən mənfi təzahürlü proseslərin hər cür ssenarisinə daim hazır olmalı, təhlükəsizliyin etibarlı şəkildə təmin olunması məsələsində ayıq-sayıqlığımızı əldən verməməliyik".

Daşaltı əməliyyatında itkin düşmüş daha 73 nəfərin adının yaxın günlərdə açıqlanacağı ilə bağlı da məlumat verilib. Bildirilib ki, DTX tərəfindən eyni zamanda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyəti də koordinasiya olunur: "Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyatda olan 3890 vətəndaşımızın taleyinə aydınlıq gətirilməsi, işğaldan azad olunmuş ərazilərdə kütləvi məzar yerlərinin müəyyən olunması, meyit qalıqlarının ekshumasiyası və eyniləşdirilməsi istiqamətində hazırda intensiv iş aparılır. Görülən tədbirlər nəticəsində 107 itkin düşmüş şəxsin eyniləşdirilməsi təmin edilmiş, onların sırasından 1992-ci ilin yanvar ayında Daşaltı əməliyyatında itkin düşmüş təhlükəsizlik orqanlarının mərhum əməkdaşı, Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov da daxil olmaqla, ümumilikdə 34 nəfərin adları ictimaiyyətə elan olunmuşdur. Yaxın günlərdə daha 73 nəfərin adları ictimaiyyətə açıqlanacaqdır. İtkin düşmüş vətəndaşlarımızın axtarışı kimi həssas məsələ ilə əlaqədar dövlətimizin başçısı tərəfindən qarşımıza qoyulan mühüm tapşırıqlar bundan sonra da tam və vaxtında icra ediləcəkdir".

# Azərbaycanda manata inam qorunur - Mərkəzi Bank

***Azərbaycanda depozitlərin dollarlaşması səviyyəsi manata inamın qorunduğunu göstərir.***




"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) pul siyasəti ilə bağlı qərarında bildirilib.

Mərkəzi Bank qeyd edib ki, valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir: "2023-cü ilin yekunu üzrə tədiyə balansının cari əməliyyatlar hesabında ümumi daxili məhsulun (ÜDM) 11.5%-i səviyyəsində profisit olub. Ticarət balansında 2024-cü ilin ilk 2 ayında 2.3 mlrd. ABŞ dolları məbləğində profisit formalaşıb. Proqnozlara əsasən mövcud meyillərin davam edəcəyi təqdirdə 2024-cü ilin yekunu üzrə də cari əməliyyatlar hesabının profisitli olacağı (yanvar proqnozu: 7-8 mlrd.ABŞ dolları) gözlənilir. Bununla yanaşı fevralda depozit dollarlaşmasının azalmaqda davam etməsi yığım vasitəsi kimi manata inamın qorunduğunu göstərir. Belə ki, fevralda maliyyə sektoru çıxılmaqla hüquqi və fiziki şəxslərin depozitlərinin dollarlaşması səviyyəsi yanvar ayına nəzərən 1.3 faiz bəndi, ötən ilin fevral ayı ilə müqayisədə isə 9 faiz bəndi azalıb".

# Heydər Əsədov rektor postunu da itirə bilər

## Hazırda Dövlət Dəniz Akademiyasına rəhbərlik edən sabiq kənd təsərrüfatı nazirinin səlahiyyət müddəti uzadılacaqmı?

***Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyevin sərəncamı ilə Elçin Babayev yenidən Bakı Dövlət Universitetinin (BDU) rektoru təyin edilib.Bəs görəsən, Elçin Babayevin yenidən həmin vəzifəyə təyin olunmasına niyə zərurət yaranıb?***

Rektorun yenidən vəzifəyə təyin edilməsi Prezident İlham Əliyevin 10 dekabr 2018-ci ildə imzaladığı fərmandan irəli gəlir. Belə ki, sözügedən fərmana əsasən, Azərbaycanda rektorlar 5 il müddətinə təyin edilir (yeri gəlmişkən, Azərbaycanda qanunvericiliyin geriyə qüvvəsi olmadığı üçün sözügedən qayda 2018-ci ilin dekabr ayından əvvəlki rektorlara aid edilmir).



Qeyd edək ki, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev 2019-cu ilin martın 11-də təyin edilib. Artıq onun təyin edilməsindən 5 ildən çox vaxt keçib və səlahiyyət müddəti bitmiş hesab edilib. Bu səbəbdən Elçin Babayev yenidən BDU rektoru vəzifəsinə təyin olunub.

Bu məqamda "Unikal.org" 2024-cü ildə daha hansı rektorların səlahiyyət müddətinin bitəcəyini araşdırıb.

Məlum olub ki, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevin və Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramovun səlahiyyət müddətləri eyni gündə bitir.

Belə ki, hər iki rektor 31 iyul 2019-cu il tarixində vəzifəyə təyin olunublar. 2024-cü ilin iyul ayında Vilayət Vəliyevin və Şahin Bayramovun səlahiyyət müddətləri başa çatacaq.

Bu il həmçinin Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev üçün də rektor kimi vəzifədə keçirdiyi sonuncu il ola bilər.Belə ki, E.İsayev 3 dekabr 2019-cu il tarixində rektor vəzifəsinə təyinat alıb. 2024-cü ilin dekabr ayında onun da səlahiyyət müddəti başa çatacaq.

2024-cü ildə səlahiyyət müddəti bitəcək ilk rektor Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA)rektoru Heydər Əsədovdur. O, 3 aprel 2019-cu il tarixində bu vəzifəyə təyinat alıb. 2024-cü ilin aprel ayında Heydər Əsədovun səlahiyyət müddəti başa çatacaq.

Xatırladaq ki, Heydər Əsədov 2013-cü ilin oktyabrın 22-dən 2018-ci ilin aprelin 21-dək Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsində işləyib.

Bəzi iddialara görə, ADDA-nın hazırkı rektorunun səlahiyyət müddəti artırılmaya bilər. Buna başlıca səbəblərdən biri kimi H.Əsədovun təqaüd yaşına çatmasıdır. Bildirək ki, 1959-cu ildə Qərbi Azərbaycanda, Sisian rayonunda doğulan Əsədovun bir neçə ay sonra 65 yaşı tamam olacaq.

Digər tərəfdən, son vaxtlar mediada ADDA ilə bağlı qalmaqallı xəbərlərə tez-tez rast gəlinməyə başlayıb. Məsələn, bir müddət öncə Azərbaycan Dövlət Dəniz Akademiyası Publik Hüquqi Şəxsi tərəfindən keçirilən tender müsabiqəsinin qalibi olan "Qüdrət 055" MMC adlı şirkətlə bağlı ilginc iddialar KİV-də yer almışdı. Tenderin nəticələrinə əsasən, Dövlət Dəniz Akademiyası iaşə xidmətinin satınalınması məqsədiylə "Qüdrət 055" MMC-yə 557 min 500 manat ödəyəcəkdi.

Lakin ölkə mediası yazırdı ki, hazırda dövlət qeydiyyatında "Qüdrət 055" MMC adlı şirkət yoxdur. Belə ki, "yeniavaz.com"un xəbərinə görə, "Qüdrət 055" MMC adlı şirkət 17 sentyabr 2018-ci il tarixində qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Binəqədi rayonu, Biləcəri ŞTQ, Ordubadi ev 9V-də yerləşib. Daha sonra (2021-ci ilin fevral ayından əvvəl) şirkətin adı dəyişdirilərək "Doydum Catering" MMC olub. Maraqlı haldır ki, 3 il əvvəl adı dəyişdirilən şirkət 557,5 min manatlıq tender müsabiqəsində mövcud olmayan ad altında iştirak edib və qalib elan edilib.

Başqa bir maraqlı məqam isə ondan ibarət olub ki, "Doydum Catering" MMC-nin rəsmi saytında şirkətin 1994-cü ildə təsis olunduğu qeyd edilib.

Onu da qeyd edək ki, ötən ilin dekabr ayına olan məlumata görə Qida Təhlükəsizliyi Agentliyi "Doydum Catering" MMC -nin qida təhlükəsizliyi qeydiyyatından imtina edib. Səbəb kimi sahibkarlıq subyektində müvafiq sanitar norma və qaydaların tələblərinə əməl etmədiyi göstərilib.

ADDA-dan bu xəbərlərə reaksiya verilməyib.

Yeri gəlmişkən, mövcud olmayan şirkətin qalib elan olunması ilə bağlı məlumatlardan təxminən 10 gün sonra bu dəfə Dövlət Dəniz Akademiyasının haqqında danışılan "İaşə xidmətinin satınalınması" tenderini "Doydum Catering" MMC-nin qazandığı yazılıb.

Mətbuatda H.Əsədovun hələ kənd təsərrüfatı naziri işlədiyi dövrdən etibarən yaxınları vasitəsilə özünə böyük biznes yaratdığı barədə də mütəmadi xəbərlər yayılır. Onun ailə üzvlərinə məxsus şirkətlərə və mülklərə İngiltərədə, Türkiyədə, həmçinin digər ölkələrdə rastlandığı barədə xəbərlərə, iddialara qarşı tərəfdən indiyədək hər hansı təkzib gəlməyib.

***Sənan Mirzə***

11_27 IYUI-QARA.qxd 3/29/2024 11:08 AM Page 4



# Qərb “Ermənistan kartı” ilə regionda gərginlik yaratmağa çalışır

***Ermənistanın Baş naziri Nikol Paşinyan, ABŞ dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula von der Leyen aprelin 5-də Brüsseldə Ermənistanın inkişafı ilə bağlı məsələləri müzakirə etmək üçün görüş keçirəcəklər.***

Azərbaycan Xarici İşlər Nazirliyi Brüsseldə keçiriləcək birgə konfransdan narahatlığını ifadə edib. XİN-in sözçüsü Ayxan Hacızadə qeyd edib ki, toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova da Ermənistan-Aİ-ABŞ görüşünü şərh edərkən Rusiyanın bu görüşlərə isti münasibət bəsləmədiyini açıqlayıb: ”Bu cür hadisələr Rusiyada narahatlıq doğurur, çünki ABŞ və Aİ nümayəndələri tərəfdaşlarımıza birbaşa deyirlər ki, onların əsas diqqəti yalnız Rusiyaya qarşıdır. Onlar bunu birbaşa, açıq mətnlə deyirlər”. Rusiyalı diplomat izah edib ki, bu cür görüşlər regionun əksər dövlətlərində narahatlıq doğurur, çünki onlar Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasına yönəlməyib.

Mövzu ilə bağlı “Unikal”a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Rusiya ilə Qərb arasındakı rəqabət pik nöqtəyə çatıb:

“Aprelin 5-də keçiriləcək görüşdə ABŞ-ı və Avropa İttifaqının nümayəndələri Paşinyana sual verəcəklər ki, o doğrudan da, Rusiya ilə əlaqələri kəsmək istəyir? Çünki, bəzi bəyanatlardan sonra real addımlar atılmır. Misal olaraq, Ermənistan dövlətinin rəsmiləri deyirlər ki, guya, onlar KTMT-dən çıxmaq istəyirlər. Digər məsələlərlə bağlı suallara isə ziddiyyətli cavablar verirlər və bildirirlər ki, rus ordusu orada qalacaq.

Həmçinin, Rusiya və Ermənistan arasında hərbi müttəfiqlik barədə xüsusi saziş də mövcuddur. Bəs bunlar nə olacaq? Məsələyə ümumilikdə baxanda görmək olur ki, Ermənistan Rusiya ilə əlaqələrdən və müttəfiqlikdən imtina etmir. Yəni, Paşinyan sadəcə olaraq görüntü yaratmağa çalışır ki, guya onlar Rusiyadan küsüblər. Əslində isə belə deyil. Fransanın mövqeyi də çox böyük maraq kəsb edir. Onlar Qərbin adından çıxış etmək istəyirlər, amma digər Qərb ölkələrinin mövqeyindən fərqli olaraq onlar özlərinin Cənubi Qafqazdakı mövqelərinin gücləndirilməsini Rusiya ilə birlikdə görürlər. Bir neçə il əvvəl Fransa prezidenti Emmanuel Makron belə bir fikir səsləndirmişdi ki, əgər biz Qafqazda nəyəsə nail olmaq istəyiriksə, gərək Rusiya ilə birlikdə siyasət həyata keçirək. Bu baxımdan, onlar razıdırlar ki, Rusiya ilə bərabər bu regionda öz missiyalarını yerləşdirsinlər.

Paşinyan isə aprelin 5-də keçiriləcək görüşdə ciddi şəkildə cavab verməlidir. Mən hesab edirəm ki, həmin görüş real nəticə verməyəcək, çünki Paşinyan öz oyununu davam etdirəcək. O çalışacaq ki, iki stolun üzərində otursun, amma indiyə qədər buna heç kim nail olmayıb. Paşinyan da buna nail ola bilməyəcək”, - deyə o qeyd edib.

Sabiq nazir əlavə edib ki, nəticədə bu böhran davam edəcək: “Biz başa düşməliyik ki, Rusiya Fransanın təşəbbüsünə dəstək vermir və yaxud bunu hələlik nümayiş etdirmir. De-fakto sərhəddə Avropa missiyası rus sərhədçiləri ilə əməkdaşlıq edir. Onlardan icazə istəyirlər ki, filan yerə gedək, orada müşahidə həyata keçirək.

İndi “alver” gedir ki, hansı şərtlərlə ruslar Avropa missiyasına, və yaxud Avropa missiyası ruslara hansı şərtlər altında qoşulacaqlar. Biz bu prosesi diqqətlə izləməliyik və başa düşməliyik ki, ermənilərin əsas məqsədi həm rusları orada saxlamaq, həm də Qərbi cəlb etməkdir. Qeyd edək ki, Qərb, ilk növbədə ABŞ buna hələ də razı deyil.

Ona görə də, təxribat təhlükəsi istisna edilmir. Ermənistanın hərbi imkanları ona imkan yaratmır ki, Azərbaycanla müharibə aparsın. Onlar hansısa qısamüddətli təxribat törədə bilərlər.

Ermənilər Fransa ilə Rusiya arasında əməkdaşlığın başlamasına nail olmaq istəyirlər ki, bununla şərti sərhədi nəzarət altına götürsünlər”.



Siyasi təhlilçi Aqşin Kərimov deyib ki, Fransa Prezidenti Emmanuel Makron ölkəsinin Cənubi Qafqaz siyasətindəki təkəbbürlü və iddialı mövqeyini davam etdirir. Onun sözlərinə görə, Makron hətta Fransanın rəqibləri ilə sövdələşməyə girib Azərbaycan-Türkiyə strateji müttəfiqliyi, bu müttəfiqliyin əmələ gətirdiyi regional əməkdaşlıq çarxının arasına çomaq soxmağı qarşısına məqsəd qoyub. Lakin Parisin dirənişinə baxmayaraq, Azərbaycanın regional genişlənmə siyasətinin təzahürləri Fransanın planlarının iflasa uğradığını göstərir: “Qlobal nüfuza malik “Le Fiqaro” nəşri yazdığı məqalədə Fransanın təşəbbüslərinin nəticə vermədiyini bildirir. Belə ki, Makron Qarabağa dair konfrans təşkil etmək istəyib, amma bu, ABŞ-nin etirazı səbəbindən baş tutmayıb. 2022-ci ilin oktyabrında “erməni məsələsini” Roma Papası ilə müzakirə etmək üçün özü ilə ermənipərəst yazıçı Silven Tessonu da aparıb. Amma Vatikandan istədiyi dəstəyi ala bilməyib. Şübhəsiz ki, “Le Fiqaro” nəşrinin iddiaları Yelisey Sarayından sızdırılmış informasiya yükünün ictimai elanıdır və Parisin məqsədi uğursuzluqlarını ört-basdır etməkdir. Fransanın Cənubi Qafqazda “erməni mərkəzli” geosiyasi teatr yaratmaq cəhdinin boşa çıxmasının başqa səbəbləri də var. Fransa Rusiya-Ukrayna müharibəsi başlayandan bəri nümayiş etdirdiyi ikibaşlı mövqelərlə hətta NATO daxilində belə mənfi və kəskin reaksiyalara məruz qalıb. Ona görə ki, Fransa Ukraynada müharibə başlayandan sonra NATO-nun müdafiə maraqlarından deyil, özünün fərdi ambisiyalarından çıxış etdi. Düzdür, indi Makron səhvlərini düzəldib yenidən Fransanın imicini bərpa etməkdən ötrü Rusiyaya qarşı demarş fonu yaradır”.

Müsahibimiz onu da qeyd edib ki, artıq ox yaydan çıxıb və aydın görünür ki, Fransanın qlobal nüfuz bölgülərindəki payları əlindən alınır. Onun qənaətincə, Makronun Ukrayna ilə bağlı bəyanatlarının şou xarakterli olmaq ehtimalı Avropanın təhlükəsizlik panoramasında ümumi narahatlıqları artırır. Fransa Rusiya-Ukrayna müharibəsinin təsirləri ilə Avropada daxili qüvvələr balansını öz hegemonluğu ilə əvəzləmək istəyir: “Yelisey Sarayında cızılan sxemlər təbii ki, Fransanın Cənubi Qafqazda Azərbaycanın və Türkiyənin formalaşdırdığı “sülh üçün sakitləşdirmə” siyasətini də hədəfə alır. Bunu təkzib edəcək məqamlar da nəzərə çarpmır və Paris hər keçən gün narrativlərini Ermənistanın xeyrinə radikallaşdırır. Buna baxmayaraq, Fransanın regional və qlobal mövqeyinin həm orta, həm də uzunmüddətli perspektivdə yarada biləcəyi problemlər araşdırılır. Bu araşdırmalar Qərbin rəsmi strateji orqanları ilə yanaşı, onlarla ziddiyyətdə duran Rusiya tərəfindən aparılır. Hər iki tərəfdən sıxışdırılan Fransa çarəsiz qalaraq genişlənmə siyasəti üçün Cənubi Qafqazda müharibə qapılarını döyür. Məqsəd digər maraqları rədd edib onları öz məqsəd və ambisiyaları ilə doldurmaqdan ibarətdir. Fransanın bunun üçün regionda məxfi gündəliyə söykənən koalisiya formalaşdırmaq üçün dəridən-qabıqdan çıxdığını da görmək çətin deyil və burada yuxarıda qeyd etdiyimiz tezisi təkrarlamaqda fayda var: Bəli, Fransa Cənubi Qafqazda liderlik rolunu almaqdan ötrü hətta rəqabətdə olduğu dövlətlərlə belə sövdələşmə kanalları axtarır, hərçənd ki, bunun effekt verdiyini sezmək çətindir. Amma Fransanın ritorikasının və Ermənistana dəstəyinin səs-küyü getdikcə artır, üstəlik, Avropa İttifaqı da prosesə cəlb edilir. Bu, bir qədər çaşqınlıq yaradır: bir tərəfdə Avropa İttifaqının Azərbaycanla tərəfdaşlıq münasibətləri, digər yanda isə Bakıya qarşı qisasçılıq hissinin alovlandırılması. Fransa birinci prinsipi ayaqlar altında tapdalatmaq niyyətindədir, lakin Avropa İttifaqının özü birləşib Parisin böyümək üçün seçdiyi belə metoda qarşı olmalıdır. Hələlik, Fransanın Cənubi Qafqazdakı mövqelərinin zəifləməsi aşkar şəkildə görünür və Parisin bu geriləməsi Azərbaycanın strateji maraqlarının böyüməsi üçün əlavə fürsətlərə çevrilir. Fürsət ona görə qiymətlidir ki, Azərbaycan Parisin sıza bilmədiyi boşluqları nəzarətə götürərək müdafiə strategiyasını təkmilləşdirir. Bu strategiya Fransanın Ermənistanı silahlandırmasına qarşı ən effektiv müdafiə refleksi kimi faydalıdır”.

Sonda siyasi şərhçi “Prosesin mənalandırılmasından irəli gələn proqnozlar bu cür ola bilər ki, Ermənistan Parisin himayədarlığı altında Azərbaycana qarşı hərbi hərəkətlənməyə keçsə, ağır zərbələrə məruz qalacaq. Fransa Azərbaycanın taktiki və strateji nəticələrinin davamının gəldiyi təqdirdə Bakı ilə münasibətlərdə daha ehtiyatlı mövqe tutmaq marşrutuna girəcək. Regionda Fransanın qurmaq istədiyi güc dinamikası taqqətdən düşəcək, hərçənd ki, Parisin onu diriltməsi üçün kəşfiyyat fəaliyyətini gücləndirəcəyi istisna deyil” - deyə fikrini tamamlayıb.

***Murad İbrahimli***

# Prezident bu qanuna dəyişiklik etdi



***"Unikal" xəbər verir ki, qanuna dəyi"Avtomobil yolları haqqında" Qanuna dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, qanuna dəyişikliklə bağlı müvafiq sənədi Prezident İlham Əliyev imzalayıb. Dəyişikliyə əsasən, avtomobil yollarından istifadəyə görə ödənilən vəsaitin bölgüsü və ondan istifadənin hüquqi əsasları yaradılıb. Belə ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi hər bir avtomagistral ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləği avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu məqsədlə açılmış bank hesabına köçürülür. Bu vəsaitin bölgüsü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

İndiyə qədər isə sadəcə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hər bir avtomagistral ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləğini avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı təsdiq edirdi.

Qeyd edək ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişlidir. Tarif Şurasının qərarı ilə Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni avtomobil yolu üçün gediş tarifləri ƏDV ilə birgə minik avtomobilləri və kütləsi 3,5 tona qədər olan yük avtonəqliyyat vasitələri üzrə 1 km üçün 9,3 qəpik (bütün yol üçün 12 manat) müəyyən edilib.

Kütləsi 3,5 tondan yuxarı olan yük avtonəqliyyat vasitələri və digər maşın-mexanizmlər üçün tarif isə 1 km üçün 11,6 qəpik (bütün yol üzrə təxminən 15 manat) təşkil edir.

Avtobuslar üzrə isə bu yolun 1 km-i üçün tarif 7,8 qəpik səviyyəsində (bütün yol üçün 10 manat) müəyyənləşdirilib. Qoşqulu və yarımqoşqulu nəqliyyat vasitələri, o cümlədən 3-4 oxlu və ya TIR-ların ödənişli yoldan istifadəsi üçün qiymət 1 km-ə 19,4 qəpikdir (bütün yol üçün 25 manat).

# Dövlət orqanlarına vakant vəzifələrə daxili müsahibə elan edilir

***Martın 28-də 18 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan 41 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Daxili müsahibə elan edilən vəzifələrin 3-ü inzibati vəzifələrin üçüncü təsnifatına, 13-ü dördüncü təsnifatına, 7-si beşinci təsnifatına, 5-i altıncı təsnifatına və 13-ü yeddinci təsnifatına aiddir. Qeyd edək ki, daxili müsahibəyə çıxarılması üçün dövlət orqanları arasında ən çox vakant vəzifə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (7 vəzifə) tərəfindən təqdim olunub. Daxili müsahibəyə çıxarılan vəzifələr arasında ən yüksək vəzifələr inzibati vəzifələrin 3-cü təsnifatına uyğun olan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında İqtisadiyyat şöbəsinin müdiri və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatında Ümumi şöbənin müdiri vəzifələridir.

Eyni zamanda, daxili müsahibə elan edilən vəzifələrdən 4-ü Naxçıvan Muxtar



Respublikasının 4 dövlət orqanı, 4-ü isə 3 yerli icra hakimiyyəti orqanı tərəfindən təqdim edilib.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Bu, vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə DİM tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir.

Daxili müsahibədə aşağıda qeyd edilən kateqoriyaya şəxslər iştirak hüququna malikdir:

-Vakant vəzifəni təqdim etmiş dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları;

-Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisarı ilə əlaqədar daxili müsahibə elan edilən dövlət orqanında ehtiyat kadr kimi saxlanılan şəxslər;

- 1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci - üçüncü təsnifatlarına uyğun olan vəzifələrə, habelə 2-ci kateqoriya dövlət orqanlarına aid mərkəzi icra hakimiyyəti orqanlarında, onlara bərabər tutulan orqanlarda (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələrə (struktur bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) iddia edən şəxslər.

Daxili müsahibədə iştirak etmək istəyən namizədlər aprelin 15-dək DİM-in internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

# Emin Əmrullayev 3 universitetə yeni prorektor təyin etdi

***Bakı Mühəndislik Universiteti, Sumqayıt Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetinə prorektor vəzifəsinə yeni təyinatlar olub.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb.

Belə ki, nazir Emin Əmrullayevin müvafiq əmrinə əsasən Ətrabə Gül Bakı Mühəndislik Universitetinin beynəlxalq əlaqələr üzrə, Könül Abaslı Sumqayıt Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə və Şahmar Umud oğlu Həsənov Azərbaycan Texnologiya Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru vəzifəsinə təyin olunublar.

# "Qarabağda hansı addımı atdıqsa..." - Ərdoğan

***Əmin olun ki, Qəzzada müsəlman qanının tökülməsinə kor və kar olanlar sabah belə bir bəla başımıza gəlsə, eyni şeyi edəcəklər.***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan AK Partiyanın Bursanın Gökdere meydanında keçirdiyi mitinqdə çıxışı zamanı deyib.

O, bununla bağlı baş verənləri diqqətə çatdırıb: "Əslində biz bunu yaşadıq. Rusiya



ilə fikir ayrılığımız olduğu, terror təşkilatlarının sərhədlərimizə çatdığı bir vaxtda Qərb dövlətləri cənub şəhərlərimizdəki hava hücumundan müdafiə sistemlərini apardılar. Allaha şükürlər olsun ki, biz o dövrün çətinliklərini öz gücümüzlə, öz imkanımızla, mübarizəmizlə dəf edə bildik. Suriyada, Liviyada, Aralıq dənizində, Qara dənizdə, Qarabağda hansı addımı atdıqsa, qarşımıza böyük bir qlobal ittifaq çıxdı".

***Ağarza Elçinoğlu***

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Rövşən Nəcəf özünə yeni müşavir təyin etdi

***Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfə yeni müşavir təyin edilib.***

"Unikal" xəbər verir ki, bu vəzifəyə "Azneft" İstehsalat Birliyinin keçmiş baş direktoru Şahmar Hüseynov təyin edilib.

Qeyd edək ki, Şahmar Hüseynov bundan əvvəl Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azneft" İstehsalat Birliyinin baş direktoru olub.

# "Şuşa İƏT Gənclər Paytaxtı - 2024"ün keçirilməsinə dair öhdəlik protokolu imzalandı

***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu arasında "Şuşa İƏT Gənclər Paytaxtı - 2024" beynəlxalq proqramının keçirilməsinə dair öhdəlik protokolu imzalanıb.***

"Unikal" xəbər verir ki, sənədi gənclər və idman naziri Fərid Qayıbov və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti Taha Ayhan imzalayıblar.

İmzalanma mərasimində gənclər və idman nazirinin müavini İndira Hacıyeva, nazirliyin Gənclərlə iş şöbəsinin müdiri Ramil Cabbarov, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun baş katibi Rəsul Ömərov və hər iki qurumun nümayəndələri iştirak ediblər.

Tədbirdən sonra gənclər və idman naziri Fərid Qayıbov və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti Taha Ayhanın iştirakı ilə mətbuat konfransı keçirilib.

Qeyd edək ki, İƏT-in 10-cu "Gənclər Paytaxtı" seçilən Şuşa şəhərində islam dünyası gənclərinin həyatının və inkişafının bütün sahələrini əhatə edəcək - elm, mədəniyyət, idman, sahibkarlıq, sosial mühəndislik, təhsil və yaradıcı sənaye istiqamətlərinə uyğun olaraq 12-dən çox irimiqyaslı oflayn və onlayn tədbirin həyata keçirilməsi nəzərdə tutulub.

# "Antiterror əməliyyatı zamanı və ondan sonrakı vaxtda mühüm işlər görülüb" - Əli Nağıyev



***Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəliyi ilə tarixi qələbənin əldə edildiyi Vətən müharibəsi dövründə düşmənin bütün cəbhələrdə həyata keçirməyə çalışdığı təxribat-pozuculuq fəaliyyətinin, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində mümkün təhdidlərin qarşısının alınmasında, Azərbaycan Ordusunun əməliyyat və əks-kəşfiyyat məlumatları ilə təmin olunmasında Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının danılmaz rolu olub.***

"Unikal" xəbər verir ki, bunu DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev rəsmi qəzetdə dərc olunan məqaləsində bildirib.

"2023-cü ilin 19 sentyabr tarixində keçirilmiş antiterror əməliyyatı zamanı və ondan sonrakı vaxtda da yuxarıda qeyd olunan istiqamətlər üzrə mühüm işlər görülüb, əhəmiyyətli nəticələr əldə edilib. Belə ki, Qarabağda fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərksilah edilib, tərəfimizdən keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə qondarma rejimin "rəhbər"lərinin gizləndikləri yerlər müəyyən edildikdən sonra onlar həbs edilərək cinayət məsuliyyətinə cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhlükəsizlik orqanlarının fəaliyyətinə verdiyi yüksək qiymətin növbəti təzahürü olaraq, 2020-ci və 2023-cü illərdə aparılan hərbi əməliyyatlar dövründə və ondan sonra həyata keçirilən tədbirlər zamanı şəxsi şücaət və qəhrəmanlıq göstərdiklərinə görə Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı ali mükafatlara layiq görülüb.

Böyük iftixarla qeyd edirik ki, bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin sıralarında 7 Vətən Müharibəsi Qəhrəmanı xidmət edir. Qeyd olunan hərbi əməliyyatlarda göstərdiyi fədakarlığa görə Dövlət Təhlükəsizliyi Xidmətinin 7 əməkdaşı "Zəfər", 14 əməkdaşı "Qarabağ" ordeni, xeyli sayda əməkdaşı başqa orden və medallarla təltif olunub", - deyə Ə.Nağıyev qeyd edib.

Ötən il Dövlət Təhlükəsizliyi Xidməti (DTX) 340 şəxs barəsində 190 cinayət işinin ibtidai istintaqını aparıb. Bildirilib ki, həmin cinayət işlərindən 27-si dövlətə xəyanət, 12-si casusluq, 7-si dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə, 35-i terrorçuluq, terrorçuluğa hazırlıq və Azərbaycan hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etməklə bağlı olub.

Dövlət Təhlükəsizliyi Xidmətində icraatda olmuş cinayət işləri üzrə vurulmuş ziyanın aradan qaldırılmaası və ya cinayət yolu ilə əldə edilmiş vəsaitlərin dövlət büdcəsi nəfinə müsadirə edilməsi məqsədilə ümumilikdə 175 milyon manatdan artıq pul vəsaitinin ödənilməsi və əmlak üzərinə həbs qoyulması təmin edilib.

# Baş nazir peşə ixtisasını təsdiq edən sənədin verilməsi qaydasını dəyişdi



***Peşə ixtisasını təsdiq edən sənədin verilməsi qaydası dəyişdirilib. "Unikal"ın xəbərinə görə, Baş nazir Əli Əsədov bununla bağlı "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə qərar imzalayıb.***

Dəyişikliklə qiymətləndirilmənin nəticəsi məqbul olan şəxsə 5 (beş) iş günü müddətində peşə təhsili üzrə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Elektron imza və elektron sənəd haqqında" qanunun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan aşağıdakı sənədlər (bundan sonra - sənəd) veriləcək.

- "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə əldə edilmiş sənədin kağız daşıyıcıda olan surətinin təsdiqi "Notariat 2 haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

- Sənədin həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

- Sənəd Agentliyin İdarə Heyəti sədrinin (və ya sədr müvəqqəti olmadıqda, onun səlahiyyətlərini icra edən şəxsin) elektron imzası ilə təsdiq edilir.

- Sənəd ərizəçi üçün yaradılmış "Şəxsi kabinet"də yerləşdirilir.

Sənəddə aşağıdakı məlumatlar əks olunmalıdır:

- Sənədin nömrəsi və verildiyi tarix (altsistem tərəfindən verilir);
- Ərizəçinin identifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kodu;
- Ərizəçinin əldə etdiyi peşə ixtisası üzrə məlumatlar:
- İxtisasın adı;
- İxtisasın kodu;
- Modulun adı (sertifikat verildiyi halda);
- Sertifikatın müvafiq ixtisas üzrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün əsas sayıldığına dair qeyd (sertifikat verildiyi halda);
- Diplomun ilk peşə təhsili səviyyəsində təhsil haqqında sənədə bərabər tutulduğuna və peşə təhsili səviyyəsinin növbəti pilləsində təhsili davam etdirmək və müvafiq ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün əsas sayıldığına dair qeyd (diplom verildiyi halda).

Sənəddə bütün məlumatlar Azərbaycan dilində yazılır.

# Vüqar Qurbanovdan yeni baş həkim təyinatı



***Binəqədi Tibb Mərkəzinə yeni baş həkim təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanov əmr imzalayıb. Əmrə əsasən, baş həkim vəzifəsinə Bella İbrahimova təyinat alıb.

Qeyd edək ki, B.İbrahimova bu təyinatadək Binəqədi Tibb Mərkəzində nevroloq vəzifəsində çalışıb.

***Murad İbrahimli***

# Bu avtomobillər taksidə istifadə oluna bilməz - RƏSMİ



***Dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən avtomobil nəqliyyatı vasitələri taksi minik avtomobilləri ilə sərnişin daşımalarında istifadə oluna bilməz.***

"Unikal" xəbər verir ki, bu, Nazirlər Kabinetinin bu gün təsdiqlədiyi "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"in təsdiq edilməsi haqqında qərarda əksini tapıb.

Dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsi ilə müəyyən edilən buraxılış kartı verilmir.

# Gömrük borcunun bank hesabına ödənilməsi qaydası dəyişdi

***Nazirlər Kabineti "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" 14 iyul 2023-cü il tarixli qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə 5 dekabr 2023-cü il 5 dekabr tarixli qanunun icrasını təmin etmək məqsədilə bəzi qərarlarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, "Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na 3 nömrəli əlavə (Qarantiya öhdəliyi) dəyişib. Əgər indiyə qədər gömrük borcu ödəniş sənədi təqdim edildiyi gündən 3 iş günü müddətində bank hesabına ödənilməli idisə, bundan sonra sərəncamın icraya qəbul edildiyi vaxtdan növbəti iş günündən gec olmayaraq ödənilməlidir.

# Vilayət Eyvazov Şamaxıda qəbul keçirdi

***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 27-də və 28-də Şamaxı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.***

"Unikal" DİN-in Mətbuat xidmətinə istinadən xəbər verir ki, nazir əvvəlcə Şamaxı rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Sonra rayon polis şöbəsinin binasında Şamaxı, Qobustan, Ağsu, Göyçay, İsmayıllı şəhər və rayonlarından qəbula gələn 238 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

34 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Azad Rəhimovun oğlu dindirilib

***Xəbər verdiyimiz kimi, Bakı Şəhər Halqası Əməliyyat şirkətinin İdman Əməliyyatları şöbəsinin rəisi işləmiş Çingiz Mehdiyev "Formula 1" oyunlarının təşkili üçün ayrılmış 400 min manata yaxın pul vəsaitini mənimsəməkdə ittiham olunur.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Ç.Mehdiyev 2006-cı ildə Amerikaya köçüb, oranın vətəndaşlığını qəbul edib. O, pasport alarkən ad-soyadını da dəyişib, Gino Metie kimi qeydə alınıb. Gino Metie bir il sonra Nyu-York şəhərində Nərminə adlı xanımla evlənib, onların bir qızı dünyaya gəlib. 2019-cu ildən onların münasibəti korlanıb, 2023-cü ildə boşanmaq üçün məhkəməyə müraciət ediblər.

Məlumata görə, Azərbaycana qayıtdıqdan sonra yenidən Çingiz Mehdiyev ad-soyadı ilə işə başlayan təqsirləndirilən şəxsi istintaqda ifşa edənlərdən biri elə arvadı Nərminə Ələkbərova olub.

Ələkbərova istintaqa verdiyi ifadəsində ərinin qanunsuz fəaliyyətlərindən danışıb, onun mənimsədiyi pullarla qardaşının adına Amerikada bahalı mülklər aldığını deyib. O, əri ilə üzləşməsində də onu ifşa edib. Nərminə həmçinin Çingizin anasının adına Seyşel adalarında şirkət açdığını, həmin şirkətə yüklü miqdarda pullar köçürməsindən də danışıb.

Cinayət baş verən vaxtda Bakı Şəhər Halqası Əməliyyat şirkətinin sabiq icraçı direktoru mərhum gənclər və idman naziri Azad Rəhimovun oğlu Arif Rəhimov olub.

Ç.Mehdiyevi də vəzifəyə o təyin edib. İstintaqın gedişində Arif Rəhimov da müstəntiqə ifadə verib. Hələ ki, məhkəmə istintaqı başlamadığına görə, bu haqda geniş məlumat verə bilmirik. Qısa olaraq onu deyə bilərik ki, Rəhimov ifadəsində Ç.Mehdiyevin qanunsuz fəaliyyətlərindən, ələ keçirdiyi pullarla ABŞ-də mülklər almasından xəbərsiz olduğunu deyib.

Çingiz Mehdiyevin cinayət işinə görə Bakıda yerləşən əmlakları üzərinə həbs qoyulub. Həmin əmlaklara bahalı evlər və torpaq sahələri daxildir.

Qeyd edək ki, Ç.Mehdiyev haqda istintaq dövrü müddətinə həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İş Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırılacaq.

# Rəşad Məcid təltif edildi

***"Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il 2 fevral tarixli 4289 nömrəli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edildim".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin katibi, "525-ci qəzeti"in baş redaktoru Rəşad Məcid bildirib.

"Yubiley medalı bu gün, martın 28-də Media Agentliyində təltif edilən həmkarlarımla birlikdə mənə də təqdim olundu", - deyən R.Məcid təqdimat mərasimindən şəkil paylaşıb.

O, ölkə başçısına bu təltifə görə təşəkkür edib: "Ümummilli Liderlə görüşmək, təmasda olmaq, onun qarşısında çıxış etmək və sual ünvanlamaq tarixi şanslar idi. Xoşbəxtəm ki, belə şanslar mənim də bəxtimə düşüb".

# "Sənədsiz evlərlə bağlı ciddi addımlar atılmalıdır"

## Ramil Osmanlı: "Müşahidələr göstərir ki, qiyməti təqribən 1 sot üçün maksimum 5000 manat müəyyən olunan ərazilərdə torpağa tələb yüksəkdir"




***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, hazırda əmlak bazarında qiymətlərin necə olmasından, fərdi evlərə tələbatın necə dəyişəcəyindən, sənədsiz evlərin nə zaman sənədləşdirilə biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Ramil müəllim, hazırda əmlak bazarında qiymətlər necədir və ötən ilin müvafiq dövrü ilə müqayisədə nə qədər fərq var?***

-Hazırda əmlak bazarında vəziyyət sabitdir. Yəni, əhəmiyyətli qiymət dəyişikliyi müşahidə olunmur. Bu da onunla bağlıdır ki, il yeni dəyişib və hər hansı makroiqtisadi təsir müşahidə edilmir. Ötən illərdən fərqli olaraq tələb xeyli azalıb. 2022-2023-cü illərlə müqayisədə tələbin kəskin şəkildə azaldığını müşahidə edirik. Buna görə qiymətlər sabitdir. Fevral ayının əvvəlindən etibarən ipoteka kreditlərinin verilməsindən sonar nisbi artımlar müşahidə olundu. Hazırda isə bu artımlar dayanıb.

***-Ən çox tələb yeni, yoxsa köhnə binalaradır?***

-Burada da vəziyyət bir qədər fərqlidir. İpoteka kreditlərində daha çox ucuz mənzillərə tələbat var. Bunlar da öz növbəsində iki yerə bölünür. Belə ki, 1970-ci ildən sonra inşa olunmuş köhnə tikililər və aşağı kvadrata malik, şəhər mərkəzindən qismən kənarda olan yeni tikililər. Ona görə ki, ipoteka kreditləri üzrə maksimum limit 150 min manatdır. Hazırda daşınmaz əmlak bazarında qiymətlərin ümumi dinamikası onu deməyə əsas verir ki, alıcıların əksəriyyəti dəyəri 200 min manata qədər olan mənzillərə üstünlük verirlər. Bu qiymətə olan mənzillər köhnə tikililərdə "Həzi-Aslanov", "Əhmədli" istiqamətində 170-180 min manata olan 3-5 otaqlılar və ya 200 min manat civarında olan yuxarıda qeyd etdiyimiz yeni tikililər. Doğrudur, istisnalar mövcuddur. Yeni tikililərdə az da olsa satış var. Amma 2022-2023-cü illərlə müqayisədə satış həcmində kəskin azalma müşahidə olunur.

***-Bəs, fərdi evlərdə vəziyyət necədir? Onların qiymətlərində artım müşahidə olunurmu?***

-Hansı fərdi evlərin sənədləri mövcuddursa, onlara tələbat qismən yüksəkdir. Həmin fərdi yaşayış evləri ipoteka kreditləri üçün yararlıdır və qiymətləri əlçatandır. Bu baxımdan onlara tələbatın yüksək olduğunu görürük. Ümumilikdə, o istiqamətdə olan vəziyyət bazardakı tendensiyaya uyğundur. Fərdi yaşayış evlərinə də ötən illərlə müqayisədə tələb xeyli aşağı düşüb.

***-Yaz və yay aylarında fərdi yaşayış evlərinə maraq artır. Həmçinin, quru sərhədlərinin bağlı olması vətəndaşların daxili turizmə üstünlük verdiyini göstərir. Qarşıdakı dönəmdə gündəlik kirayə verilən fərdi evlərin qiyməti necə dəyişəcək?***

-Tədricən regionlarda turizm imkanları genişlənir. Yay mövsümündə fərdi yaşayış evlərinin kirayə qiymətində artımlar müşahidə olunur. Belə ki, quru sərhədləri bağlıdır və faktiki olaraq rəqabət üçün alternativlər mövcud deyil. İndiki halda vətəndaşların seçim imkanları aşağıdır. Xaricə təyyarə ilə səfər etmək imkanları yuxarı səviyyədə olmayan şəxslər bu istiqamətə üstünlük verirlər. Bu da turizm potensialı yüksək olan ərazilərdəki fərdi yaşayış evlərinə tələbi artırır və orada qiymətlərin artımı müşahidə olunur.

***-Adətən yaz fəslində torpaq alqı-satqısında canlanma müşahidə edilir...***

-Torpaq bazarı digər seqmentlərdən asılı olaraq daha likvid hesab olunur. Bu da ölkədəki iqtisadi vəziyyətdən və qəbul olunan qərarlardan asılıdır. Ümumi iqtisadi tendensiyaya uyğun olaraq bazardakı makroiqtisadi durğunluq, stabillik bu sahəyə də təsir göstərir. Eyni zamanda, fərdi yaşayış evinin tikintisi üçün uyğun olan sənədli torpaq sahələrinə həmişə tələb yüksək olub. Bu da ondan irəli gəlir ki, mənzillərdə qiymət artımı baş verdikcə, əhalinin nağd şəkildə böyük məbləğə mənzil almaq imkanı məhdud olan təbəqəsi fərdi yaşayış evinə üstünlük verir. Yəni, torpaq alır və orada fərdi yaşayış evi tikir. Belə olan şəraitdə torpaq sahələrinə tələb yüksək olaraq qalır. Müşahidələr göstərir ki, qiyməti təqribən 1 sot üçün maksimum 5000 manat müəyyən olunan ərazilərdə torpağa tələb yüksəkdir. Qalan ərazilərdə isə ümumi mənzərəyə uyğun olaraq stabil tendensiya müşahidə edirik.

***-Sənədli fərdi evlərə tələbin yüksək olmasını siz də qeyd etdiniz. Məlum olduğu kimi, hazırda sənədsiz fərdi evlərin sayı çoxdur. Bir müddətdir onlarla bağlı müzakirələr gedir.Yaxın vaxtlarda bu evlərin sənədləşdirilməsi ilə bağlı addım atıla bilərmi?***

-Təbii ki, addım atıla bilər. Amma bu addım olacaqmı, bu başqa bir sualdır. Hesab edirəm ki, zəruridir və bu istiqamətdə qərar qəbul olunmalı, ciddi addımlar atılmalıdır. Təəssüflər olsun ki, son illərdə aparılan müzakirələr, ümumi mənzərə hələ ki, nikbin olmağa tam şəkildə əsas vermir. Hesab edirəm ki, 1-2 il ərzində belə bir qərar olacaq.

***Anar Kəlbiyev***

# Oliqarx məmurların rayonlarda "torpaq istilası"

## Min hektarlarla əkinə yararlı sahələri kimlər və necə zəbt ediblər? - İlginc təfərrüatlar...

***Azərbaycanın bəzi rayonlarında min hektarlarla əkinə yararlı torpaq sahələri, örüş yerləri hasarlanıb və illərdir toxunulmaz ərazilər kimi imkanlı şəxslərin, o cümlədən oliqarxların və məmurların mülkiyyətində saxlanılır. Hətta dövlət başçısı da zamanında əkinə yararlı torpaqların imkanlı şəxslər tərəfindən zəbt edilməsinə diqqət çəkmişdi. Ölkə rəhbəri hələ 2016-cı ildə Sabirabadda keçirilmiş müşavirədə bu barədə daha sərt danışmışdı: "Bəzi torpaqlar müxtəlif adamlar tərəfindən qanunsuz olaraq zəbt edilib və o torpaqlarda heç bir fəaliyyət göstərilmir. O torpaqların icarə müqavilələri ləğv edilməlidir... Bir qarış torpaq belə boş qalmamalıdır".***

Müşahidələr göstərir ki, bu saəsası yoxdur. Torpaqlardan istifadə olunmalıdır. Qanunda da qeyd olunub ki, torpağı icarəyə götürəndən sonra 3 il əkib-becərmirsənsə, səndən alınıb başqasına verilməlidir.

Eləcə də istifadəsiz qalan torpaqları alanlar da əkin işləri görməlidir. Adamlar var heyvan saxlayır, ancaq torpağını satıb, yeri yoxdur ki, onu otarsın. Qonşu icazə vermir ki, boş ərazidə həmin mal-qara otlasın. Nə olsun ki, yer sənindir? Torpaq boş qalınca, bu adama ucuz ver, mal-qarası otlasın, oranı da abadlaşdırsın. Torpaq əkilib-becərilməyəndə ölür. Ona görə hər bir qarış torpaqdan istifadə edilməlidir.

Ayrı-ayrı yerlərdə zəbt olunmalar çoxdur. Dövlətin tapşırıqları var, torpaqlar müəyyən adamların əlindən alınıb, yenə də alınmalara ehtiyac var. Bu məsələdə ciddi tədbirlər görülməlidir".



hədə vəziyyət problemli olaraq qalmaqdadır. Bəzi rayonlarda hasarlanmış istifadəyə yararlı torpaqlar imkanlı şəxlərin "işğalından" qurtarılmayıb.

İmkanlı şəxslər vaxtilə hansısa yollarla bələdiyyə və dövlət torpaqlarını hasarlayıblar, bəzi hallarda müxtəlif bəhanələrlə xüsusi mülkiyyətdə olan pay torpaqlarını da kəndlilərin əlindən alıblar.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev gündəmdə olan mövzu ilə bağlı modern.az-a açıqlamasında deyib ki, zəbt olunmuş torpaq sahələri istifadəsiz saxlanıla bilməz: "Sözsüz ki, bu qanunsuz addımdır. Bəzi örüş yerləri qanunsuz olaraq əkilir. Müəyyən adamlar tərəfindən zəbt olunub. Bəzi adamlar ehtiyac ucbatından, şəhərə gəldiklərinə görə pay torpaqlarını satırlar. Müəyyən adamlar bu torpaqları alır, onları çəpərləyərək "bura mənimdir" deyirlər. "Bura mənim atamdan qalıb, sovet vaxtı burada olmuşam" kimi sözlərin də heç bir

"Unikal" xatırladır ki, ötən il ölkə mediasında son illərdə böyük şirkətlər, vəzifəli şəxslər tərəfindən ələ keçirilən və boş saxlanılan min hektarlarla torpaqların kənd təsərrüfatının inkişafına cəlb edilməsi istiqamətində ciddi addımlar atıldığı yazılırdı. Bildirilirdi ki, rayonlarda əvvəllər əkin üçün istifadə olunan torpaqların mühüm hissəsinin yenidən əkin altına alınması təmin edilib. Hazırda bu sahədə əsas problem yüksək vəzifəli məmurların, iş adamlarının bağ evi kimi istifadə etdikləri böyük villaların ətrafındakı torpaqlardır. Belə ki, xüsusilə turizm baxımından əlverişli olan yaşayış məntəqələrində saysız-hesabsız villalar var ki, hər biri 10-15 hektar torpaqla əhatə olunub. Bir çox hallarda bu villalar meşələrin ortalarında, yaxud ən münbit torpaqlarda tikilib. Verilən məlumata görə, ötən ildən başlayaraq belə villaların siyahılaşdırılması həyata keçirilib, bu zaman peyk xidmətlərindən geniş istifadə edilib. Bütün ölkə boyu belə villaların qeydiyyatı aparılıb, xəritə tərtib olunaraq ölkə rəhbərliyinə təqdim edilib. Vəziyyətlə tanış olan dövlət başçısı bütün faktlar üzrə araşdırma aparılmasını, qanunsuz zəbtlərin, torpaqların təyinatının icazəsiz dəyişdirilməsi faktlarının siyahılaşdırılmasını və müvafiq tədbirlər görülməsini tapşırıb.

Onu da qeyd edək ki, haqqında bəhs olunan villaların xeyli hissəsinin yerləşdiyi torpaqlar qanuni yolla əldə edilib - özəlləşdirmə zamanı əhaliyə verilən pay torpaqlarıdır və sahiblərindən qanuni yolla satın alınıb. Lakin həmin torpaqlarda villaların tikintisi, daha sonra onların əkinə cəlb olunmaması qanun pozuntusu hesab olunur. Bəzi hallarda yüksək vəzifəli məmurlar aldıqları torpaqların təyinatının dəyişdirilməsinə də nail ola biliblər. Bunun necə həyata keçirildiyinin araşdırma istiqamətlərindən biri olduğu da bildirilirdi. Həmin araşdırmaların başa çatıb-çatmadığı, başa çatıbsa nə ilə nəticələndiyi məlum deyil. Bircə o bəllidir ki, min hektarlarla əkinə yararlı torpaq sahələrinin, örüş yerlərinin oliqarx məmurlar, yaxud onlara yaxın şəxslər tərəfindən faktiki olaraq mənimsənilməsi problem olaraq qalır. Belə görünür ki, həmin problemin həlli istiqamətində daha təsirli addımların atılmasına ehtiyac var.

Yeri gəlmişkən, hələ bir neçə il öncə də sözügedən mövzuda yerli mediada maraqlı xəbərlər yayılmışdı. Bildirilirdi ki, Azərbaycanda hətta on minlərlə hektar torpaq sahəsini ələ keçirmiş yüksək çinli məmur var. Bu qədər böyük torpaq sahəsinin onun nəyinə gərək olduğunu demək çətindir. Bilinən odur ki, başda bəzi nazirlər, nazir müavinləri, icra başçıları olmaqla zəbt olunan iri torpaqların əhəmiyyətli qismi əkilib-becərilmir. Baxmayaraq ki, onlara məhz əkin adı ilə yiyələniblər. "Hazırda belə şəxslərin siyahısı hazırlanır, bu isə bir çox məmurlara baha başa gələ bilər. İllərdir əkinə yararlı böyük torpaq sahələrini ələ keçirmiş, onu əkin məqsədilə istifadəsiz saxlamış, bu da azmış kimi, həmin torpaqlardan başqa məqsədlər, məsələn, şəxsi imarətlər, villalar tikmək üçün yararlanmış belə məmurların sərt cəzalandırılması mümkündür. Həmin torpaqların onların əlindən alınacağı dəqiqdir, amma onlar yalnız bu torpaqları deyil, vəzifələrini də itirə bilərlər", - deyə həmin vaxt vurğulanırdı.

Lakin aradan illər keçib, ancaq göründüyü kimi problem öz aktuallığını qoruyur. Buna isə ancaq təəccüblənmək və təəssüflənmək olar...

***Sənan Mirzə***

# Ombudsman Xankəndidə erməni əsilli sakinlərlə görüşdü

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) mandatı çərçivəsində ölkəmizdə yaşayan milliyyətindən, dinindən, dilindən, irqindən və digər mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqlarının təmini məsələlərinə diqqət yetirir.***

Ombudsman Aparatından "Unikal"a verilən məlumata görə, Ombudsman Səbinə Əliyeva Xankəndi şəhərində erməni əsilli sakinlərlə görüşüb, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həssas əhali qrupları üçün yaradılmış sığınacağa da baş çəkib.

S.Əliyeva müəssisədə, eləcə də, müəssisədən kənarda yaşayan və xidmətlərdən faydalanan erməni əsilli sakinlərin hüquq və azadlıqlarının təmini vəziyyəti ilə maraqlanıb, Ombudsmanın səlahiyyətləri barədə ətraflı məlumat verib. Eləcə də psixoloq və sosial işçilər tərəfindən sakinlərə göstərilən sosial xidmətlər, qida təminatı monitorinq olunub.

Qəbul edilmiş şəxslərin müraciətləri dinlənilib və onlar göstərilən münasibətdən, yaradılmış şəraitdən razılıq ediblər.

Başçəkmə zamanı Ombudsmanın 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzi barədə məlumatı özündə əks etdirən plakatlar müəssisəyə təqdim olunub.

# Məktəblərə işə qəbul üzrə təkrar müsahibə keçiriləcək

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsi ilə bağlı işə qəbul müsabiqəsinə dair təkrar müsahibəyə martın 29-da start veriləcək.***

Bu barədə "Unikal"a İdarədən məlumat verilib. Qeyd edilib ki, təkrar müsahibədə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsi üzrə işə qəbul müsabiqəsinin müsahibə mərhələsində 2 - 2.99 bal nəticə toplayan və təlimə cəlb edilən namizədlər iştirak edəcəklər.

Müsahibə nəticələrinin qiymətləndirilməsi 5 ballıq şkala əsasında aparılacaq. Nəticələr barədə məlumatlar namizədlərin qeydiyyatdan keçdiyi mobil nömrəyə SMS vasitəsilə göndəriləcək.

Müsahibə zamanı namizədlərin vəzifə üzrə nəzəri bilikləri, idarəetmə bacarıqları və fərdi səriştələri nəzərə alınacaq.

Qeyd edək ki, təkrar müsahibədə uğur qazanan namizədlər müvafiq vakant yerlərə təyin olunacaq və ya kadr ehtiyat siyahısına daxil ediləcəklər.

# Mərkəzi Bank uçot dərəcəsini azaltdı

***Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti (AMB) uçot dərəcəsi ilə bağlı növbəti qərarını açıqlayıb.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, Mərkəzi Bank uçot faiz dərəcəsini 7,75%-dən 7,25%-ə endirib. Faiz dəhlizinin aşağı həddi 6,25%-dən 5,75%-ə, faiz dəhlizinin yuxarı həddi isə 8,75%-dən 8,25%-ə endirilib.

Xatırladaq ki, AMB-nin bundan əvvəlki üç qərarında da uçot dərəcəsini endirib. Sonuncu dəfə bu il yanvarın 31-də uçot dərəcəsi 8%-dən 7.75%-ə, faiz dəhlizinin aşağı həddi 6.5%-dən 6,25%-ə, faiz dəhlizinin yuxarı həddi isə 9%-dən 8.75%-ə endirilib.

11_27 IYUI-QARA.qxd 3/29/2024 11:09 AM Page 9



# İcma Ermənistanı Fransanın oyunlarına getməməyə çağırdı

***Qərbi Azərbaycan İcması Ermənistan hökumətini və ictimaiyyətini tarixdən dərs çıxararaq, Fransanın oyunlarına getməməyə çağırıb.***

İcmadan "Unikal"a daxil olan bəyanatda bildirilib ki, martın 27-də Fransanın "Le Figaro" qəzetində Ermənistanın vaxtilə işğal etdiyi Azərbaycan ərazilərində yaratmış olduğu və tarixin zibil qutusuna atılmış qanunsuz rejimin tör-töküntüləri ilə müsahibə dərc edilib.

Qeyd olunub ki, Azərbaycanın xalqlar arasında nifaqı geridə qoymağa xidmət edən, anlaşmaya, barışığa əsaslanan, alicənab və mərhəmətli siyasəti sayəsində sərbəst qalmış bu şəxs indi yenidən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsd etmək fikrinə düşüb. Sözügedən şəxs separatçı strukturların Ermənistan ərazisində fəaliyyətini davam etdirdiyini bildirib, Fransa başda olmaqla xarici gücləri regionun məsələlərinə müdaxilə etməyə çağırıb və Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsinə qarşı çıxıb. Sözügedən separatist ünsürlər özlərini "mühacir hökumət", "prezident", "nazir" kimi təqdim edir, Ermənistan hökuməti isə faktiki olaraq buna göz yumur.

Vurğulanıb ki, müsahibənin məhz Fransanın mətbuat orqanlarının birində dərc edilməsi təsadüfi deyil. Fransa başda olmaqla öz mənfur geosiyasi niyyətləri ilə regiona daxil olmağa çalışan bəzi qüvvələr regionda sülhün əldə edilməsinə yol vermək istəmirlər və bunun üçün bütün vasitələrlə gərginliyi artırmağa çalışırlar. Ermənistanın hərbiləşdirilməsinə yardımlar, bu müsahibə, 5 aprel 2024-cü ildə keçiriləcək Ermənistan-ABŞ-Avropa İttifaqı sammiti - bunların hamısı eyni xəttə xidmət edən vahid kampaniyanın tərkib hissələridir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətini və ictimaiyyətini tarixdən dərs çıxararaq Fransanın oyunlarına getməməyə çağırır. Ermənistan dərk etməldir ki, öz ərazisində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd edən ünsürlərin fəaliyyətinə şərait yaratması yolverilməzdir. Qərbi Azərbaycan İcması Ermənistandan revanşist və militarist siyasətinə son verməyi, Azərbaycanla sülh əldə etmək yolunu tutmağı və Qərbi azərbaycanlıların öz evlərinə qayıtmasına şərait yaratmağı tələb edir.

# Məktəbdə nöqsan aşkarlandı - Direktor işdən çıxarıldı

***Salyan rayon Pambıqkənd kənd Azad İbadov adına tam orta məktəbin direktoru Dilbər Qurbanova işdən çıxarılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Şirvan-Salyan Regional Təhsil İdarəsi məlumat yayıb. Bildirilib ki, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktorunun müvafiq əmrinə əsasən, Dilbər Qurbanova 27 mart 2024-cü il tarixindən tutduğu vəzifədən azad edilib.

Belə ki, Şirvan-Salyan Regional Təhsil İdarəsinin əməkdaşları tərəfindən 28 fevral 2024-cü ildə Salyan rayon Pambıqkənd kənd Azad İbadov adına tam orta məktəbdə müxtəlif istiqamət üzrə yoxlama aparılıb.

Yoxlama zamanı məktəbin idarəolunması, şagirdlərin məktəbə davamiyyəti, əmək intizamı, dərslərin əvəzolunması, dərsdənkənar məşğələlərin və dərnəklərin təşkili və keçirilməsi, fərdi təhsilin təşkili, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar üçün evdə təhsilin təşkili ilə bağlı nöqsan və çatışmazlıqlar aşkar olunub.

Məsələyə hüquqi qiymət verilməsi üçün hüquq-mühafizə orqanlarına müraciət olunub.

# Ağdərədə pulemyot aşkarlandı

***Polis əməkdaşları Ağdərədə qumbaraatan və pulemyot aşkarlayıblar.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyi (DİN) Mətbuat Xidmətinin Bərdə regional qrupundan məlumat verilib. Bildirilib ki, Tərtər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə Ağdərə rayonunun Çiləbürt kəndi ərazisindən 2 qumbaraatan və pulemyot silahının hissələri aşkar olunaraq götürülüb.

Araşdırma aparılır.

# Hotellərdə Novruz absurdu...

## Vergi Məcəlləsindəki 75 faizlik güzəşt də fantastik qiymətləri endirmədi




***Arxada qalan 7 günlük Novruz bayramı tətilində Azərbaycanın turizm bölgələrindəki hotellərdə ənənə dəyişməyib: qiymətlər əksəriyyət üçün kifayət qədər əlçatmaz olub.***

Bunu bir sıra hotellərin müəyyənləşdirdiyi qiymətlərdən aydın görmək mümkündür. Məsələn, "Basqal Resort & Spa"da martın 20-də iki nəfər üçün bir gecəlik gecələmə qiyməti 360 manat təşkil edib. Üstəlik, bu qiymətə yalnız səhər yeməyi daxil olub. Bayram günü dörd nəfərin istirahəti üçün "family suite" otaqlarının bir gecəsi isə 780 manata çatıb.

"Qəbələ Hospitalty Group"un hotellər şəbəkəsində qiymətlər hotelin yerləşdiyi əraziyə görə dəyişib. Qəbələdə "Qafqaz Riverside Hotel"də bayram günlərində bir gecəlik otaqların qiyməti 298 manat təşkil edib. Burada da qiymətə gündə bir dəfə səhər qidalanması daxil olub.

"Qafqaz Tufandag Hotel"də isə martın 20-dən başlayaraq gecələmək üçün otaqlar iki nəfər üçün 358 manatdan başlayıb.

"Qafqaz Resort Hotel"də bayram günləri üçün gecələmə yerləri qonaqlara iki nəfərlik otaqlar üçün 113 manat müəyyənləşdirilib.

"Şəki Park Hotel"də iki nəfərin səhər yeməyi daxil gecələmə qiyməti 150 manat olub. "Marxal Resort & Spa Hotel"də bir gecə standart otaqlar iki nəfər üçün 240 manatdan başlayıb. Həmin qiymətə də yalnız səhər yeməyi daxil olub.

"Lankaran Springs Wellness Resort" Hoteldə martın 21-dən sonra iki nəfər üçün gecələmə yerlərinin qiyməti 500 manat təşkil edib. Bura gündə üç dəfə qidalanma daxildir. Martın 22-23-24-dən sonra isə qiymətlər 100 manat enərək 400 manat müəyyənləşdirilib.

Azərbaycanda xüsusilə bölgələrdə yerləşən hotellərdə və istirahət mərkəzlərində qiymətlərin hər bayramda fantastik şəkildə bahalaşması adət halını alıb və ictimaiyyət arasında bu, birmənalı qarşılanmır. Ölkəmizdə azbüdcəli hotellərin inşa olunacağı ilə bağlı vədlər isə elə vəd olaraq qalır.

Turizm üzrə ekspert Ceyhun Aşurov bu yaxınlarda Sputnik Azərbaycan-a bildirib ki, hər bayramda bölgələrdəki hotellərdə qiymət artımının bir neçə səbəbi var. Bölgələrdə kənd evlərinin sayı artırılsa da, hotellərdə qiymət artımı davam edir. "Qiymətlərin ucuzlaşması üçün yeni turizm destinasiyaları yaranmalıdır. Ölkədə hotel və gecələmə yerlərinin sayının azlığı qiymətə əsas təsir edən amillərdəndir. Quru sərhədlərin bağlı qalması da daxili turizmə tələbatı artırır ki, bu da qiymətlərin baha olmasına səbəb olur" deyən ekspert əlavə edib ki, azbüdcəli turistlər üçün azulduzlu hotellər inşa olunmadığından, bölgələrdə istirahət orta təbəqə üçün əlçatmaz olur.

Xatırladaq ki, ötən ilin sonlarından Azərbaycanda fəaliyyət göstərən hotel və sanatoriyalara bəzi güzəştlər nəzərdə tutulub. Bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik edilib. Dəyişikliyə görə, yanvardan Azərbaycanın regionlarında hotel və sanatoriyaların əmlak vergisi 3 il müddətinə 75 faiz azaldılıb.

Bu dəyişikliyin ardından hotellərin fantastik qiymətlərində azalma olacağına dair gözləntilər ortaya çıxmışdı. Ekspertlər deyirdilər ki, yeni güzəştlər bölgələrdə hotellərin qiymətinin azalmasına gətirib çıxarmalıdır. "Belə təşviqlər olanda hotellər mümkün qədər qiymətlərini endirirlər. Hotellər xərc hesablamalarını apararkən əmlak vergisini oraya daxil etməyəcəklər. Bu da turistlərə daha sərfəli qiymətlərlə istirahət etmək imkanı yaradacaq. Məlum güzəştlərdən sonra region hotellərinin qiymətlərindəki fərqi görə biləcəyik, az bir faizlə olsa da, ucuzlaşmanın şahidi olacağıq. Təbii ki, mövsüm vaxtı bazar iqtisadiyyatının şərtləri, tələb və təklifdən asılı olaraq qiymətlərin artımını hər il müşahidə edirik. Gələn il də bayram vaxtı, özəl günlərdə bunun olması qaçılmazdır. Amma güzəştlər ümumilikdə müəyyən qədər hotellərin qiymətlərinə öz müsbət təsirini göstərəcək" - onlar KİV-ə açıqlamalarında bildirirdilər.

Bəzi mütəxəssislər isə qanun qüvvəyə minəndən sonra hotel qiymətlərində dəyişikliyin olub-olmamasını görməyin mümkünlüyünü vurğulayırdılar. "İctimai qınaq olsa, görsələr ki, insanların çoxu bununla maraqlanır və qiymətlərin nəyə görə dəyişməməsindən şikayətlənir, onda istər-istəməz otellər özlərinə, qiymətlərinə "çəki-düzən" verəcəklər. Düşünürəm ki, yanvardan sonra o istiqamətdə addımlar atılacaq" - deyə bildirilirdi.

Lakin turizm bölgələrindəki Novruz qiymətlərindən göründüyü kimi sözügedən istiqamətdə ümidlər boşa çıxıb: Azərbaycanın regionlarında hotel və sanatoriyaların əmlak vergisi 3 il müddətinə 75 faiz azaldılsa da, onların fantastik qiymətlərində müsbət dəyişiklik baş verməyib. Həmin qiymətlər sadə vətəndaşlar üçün əlçatmaz olaraq qalıb. Bu absurddur və şübhəsiz ki, izaha ehtiyacı var...

***Toğrul Əliyev***

11_27 IYUl-QARA.qxd 3/29/2024 11:09 AM Page 10



# Şirzad Abdullayevin məmur karyerasını bitirən ittihamlar...

## Sabiqlərin izi ilə: 48 yaşında nazir müavini təyin edilən professor həmin vəzifədə niyə cəmi 2 il qaldı?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz keçmiş nazir müavini Şirzad Abdullayevdir.***

Dörd il öncə İqtisadiyyat Nazirliyində kadr dəyişikliyi oldu - həmin vaxt bu qurumda nazir müavini postunu tutan Şirzad Abdullayev vəzifəsindən azad edildi. Halbuki o, bundan cəmi 2 il əvvəl - 2018-ci ilin mayında həmin posta təyin edilmişdi.

Öncə onu bildirək ki, Ş.Abdullayev mediaya Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru işlədiyi dövrdən tanışdır. Onun haqqında internet resurslarında onlarla tənqidi və ittiham dolu iddialar yer alıb. Bildirilir ki, Şirzad Abdullayev büdcə vəsaitləri hesabına özünə yaxın olan şəxslərin şirkətlərinə böyük məbləğdə güzəştli kreditlər verib. Sonrakı araşdırmalar zamanı məlum olub ki, bu kreditlər heç də təyinatı üzrə xərclənməyib.

İddia olunur ki, Şirzad Abdullayevin vaxtilə rəhbərlik etdiyi qurumda sahibkarların kreditə götürmək istədiyi məbləğin 15 faizini "zəhmət haqqı" kimi tələb ediblər. Bu kin Ş.Abdullayevin icraçı direktor olduğu dövrdə qurumla bağlı çoxsaylı neqativ xəbərlər yayıldı. Şirzad müəllimin adı isə müxtəlif qalmaqallı xəbərlərdə, ittihamlarda, şikayətlərdə hallandı. "Sahibkarlığa Kömək Milli Fondu ölkədə fəaliyyət göstərən kiçik və orta biznesə yardım etmək məqsədilə yaradılıb. Amma indiyədək yayılan məlumatlara nəzər saldıqda və müxtəlif mənbələrdən gələn məlumatlara diqqət yetirdikdə məlum olur ki, bu qurumun fəaliyyəti heç də birmənalı olaraq kiçik və orta biznesin inkişafına yönəlməyib. Bu fond tərəfindən kreditlərin ayrılmasında ciddi korrupsiya hallarına yol verilməsi və kreditlərin əksər hallarda təyinatı üzrə xərclənmədiyi iddia olunur. Eyni zamanda qeyd olunur ki, adıçəkilən Fonddan xırda fermerlərin və orta təbəqəyə aid sahibkarların kredit götürməsi bir çox hallarda mümkünsüz olur. Bu baş tutanda isə fermerlərdən "haqq" tələb edilir"" - həmin dövrdə KİV yazırdı.



Ş.Abdullayev 1970-ci ildə Ağdaş rayonunda anadan olub. Azərbaycan Dövlət İqtisad Universitetini iqtisadçı ixtisası üzrə, Bakı Dövlət Universitetini hüquqşunas ixtisası üzrə bitirib. Almaniya Federativ Respublikasında Berlin İqtisadiyyat Məktəbi və Almaniya Tətbiqi Elmlər İnstitutunda əlavə təhsil alıb. Ş.Abdullayev uzun müddət bank sistemində işləyib. 2003-2008-ci illərdə Mərkəzi Bankın Bank nəzarətinin hüquqi təminatı şöbəsinin rəisi, 2008-ci ildən İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru olub. Ölkə başçısının 2018-ci il 31 may tarixli sərəncamı ilə isə iqtisadiyyat nazirinin müavini təyin edilib.

Tərcümeyi-halından görünən odur ki, iqtisad elmləri doktoru, monoqrafiyaların, dərs vəsaitlərinin müəllifi, professordur.

Mələmat üçün deyək ki, Sahibkarlığa Kömək Milli Fondu 1992-ci ildə yaradılmasına baxmayaraq, aktiv fəaliyyətə 2002-ci ildən başlamışdı. La... şərtlə razılaşmayan sahibkar isə kredit götürməkdən məhrum edilib. Üstəlik, müxtəlif bəhanələrlə onun fəaliyyətinə maneə yaradılıb.

Bu fond tərəfindən kreditlərin ayrılmasında ciddi korrupsiya hallarına yol verilməsi və kreditlərin əksər hallarda təyinatı üzrə xərclənməmdiyi barədə çoxsaylı şikayətlər də olub.

Görünür, həm də bu kimi şikayətlər səbəbindən dövlət başçısı 2018-ci ilin avqust ayının 1-də Sahibkarlığa Kömək Milli Fondunun ləğv edilməsinə dair fərman imzaladı. İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs təsis edildi.

Mələmat üçün deyək ki, Sahibkarlığa Kömək Milli Fondu 1992-ci ildə yaradılmasına baxmayaraq, aktiv fəaliyyətə 2002-ci ildən başlamışdı. La-

Nəticə etibarilə iş o yerə çatdı ki, adıçəkilən Fond ləğv olundu, bununla belə Abdullayev işsiz qalmadı və nazir müavini təyin edildi. Görünən odur ki, həmin vəzifədə də etibarı doğrultmadığından sabiq müavin artıq 4 ildir ki, hökumətdə hər hansı vəzifə daşımır.

Bəs sabiq nazir müavini indi hardadır?

Əldə etdiyimiz məlumata görə, Şirzad Abdullayev hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və maliyyə institutları" kafedrasının professorudur. O, bank sistemində çalışmağa başlamazdan əvvəl, 2001-2002-ci illərdə həmin universitetdə "Bank işi və pul tədavülü" kafedrasının baş müəllimi, sonralar - 2002-2007-ci illərdə isə dosent olub. Professor vəzifəsini isə 2007-ci ildən tutur.

Hökumət işindəki karyerası erkən, cəmi 50 yaşda bitən və hazırda 54 yaşında olan Şirzad müəllimin gələcəkdə yenidən hər hansı yüksək vəzifəyə təyin edilib-edilməyəcəyi bəlli olmasa da, hazırda onun əsasən elmi fəaliyyətlə məşğul olduğu deyilir.

***Toğrul Əliyev***

# Uçot dərəcəsinin azalması kredit faizlərini aşağı salacaq?



***"Mərkəzi Bank uçot dərəcəsini 7.75%-dən 7.5%-ə, faiz dəhlizinin yuxarı həddini 8.75%-dən 8.5%-ə endirib və faiz dəhlizinin aşağı həddinin isə 6.25% səviyyəsində dəyişməz saxlayıb".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, uçot dərəcəsinin endirilməsi inflyasiya səviyyəsinin azalması və bu meyillərin hədəf diapazonu daxilində formalaşması və təbii ki, makro-iqtisadi stabilliyin qorunması ilə bağlıdır:

"2023-cü ilin noyabr ayından başlayaraq Mərkəzi Bank uçot faiz dərəcəsinin azaldılması ilə bağlı qərarlar qəbul edib. Noyabrın 2-də faiz dərəcəsini 9-dən 8.5 faizə endirən Mərkəz Bank ötən ilin son ayında da əlavə 0.5 faizlik azalmaya getmişdi. Mərkəzi Bankın son qərarında iki mühüm məsələ diqqəti çəkir. Faiz dəhlizinin aşağı həddinin dəyişdirilməməsi, depozit və kredit faizlərinə təsirin gücləndirilməsi istiqamətində islahatların davam etdirilməsi. Faiz dəhlizinin aşağı həddini dəyişdirməməklə Mərkəzi Bank öz notlarının optimal gəlirliyini qoruyub saxlamağa çalışır. Dünən də həmin notların son faiz dərəcəsi üzrə cüzi olsa da artım qeydə alınıb. Bununla baş bank qiymətli kağızlar bazarındakı mövqeyini gücləndirməyə və sektor iştirakçılarından daha çox vəsait cəlb etməyə çalışır. Bu ondan xəbər verir ki, Mərkəz Bank öz notlarının son faiz dərəcələri üzrə kəskin azalmalara getməyi hədəfləmir".

Kreditlərin ucuzlaşa bilməsi mümkünlüyünə gəldikdə isə, deputat qeyd edib ki, hələlik uçot dərəcəsinin bu faizlərə ciddi təsiri yoxdur: "Etiraf etmək lazımdır ki, bu təsirlərin müşahidə olunması üçün hələ bir müddət lazımdır. Bu heç də Mərkəzi Bankın mövcud fəaliyyəti ilə bağlı deyil. Amma adətən digər ölkələrdə Mərkəzi Banklar uçot faiz dərəcəsini azaldan zaman depozit və eləcə də kredit faizlərində də enişlər müşahidə edilir. Azərbaycan Mərkəzi Bankının son dövrlər uçot faiz dərəcəsinin azaltmasına rəğmən əksinə depozit faizlərində artım müşahidə olunmaqdadır.

Əvvəllər 5.0-6.0 faiz dərəcəsi ilə depozit qəbul edən sistem əhəmiyyətli banklarda müddətindən asılı olaraq depozit faizləri 8.0-9.5 faiz arasında dəyişir. Depozit faizlərindəki artımlara Blumberq platformasında banklar arasında milli valyutada bağlanan əqdlərin sayı və eləcə də onların ortaçəkili faiz dərəcəsi də təsirsiz ötüşməyib. Belə ki, Mərkəzi Bank bankların passiv aktivlərinin bir hissəsini öz notları vasitəsilə cəlb edə bilib və bu da banklarda əlavə vəsaitlərə tələb yaradıb. Bununla belə, banklardan kənarda nağd pulun həcmi də kifayət qədər böyükdür. Bütün hallarda Mərkəzi Bankın son qərarı kredit faizlərində ciddi dəyişikliyə səbəb olmayacaq".

# Rövşən Nəcəf "Azneft"in rəhbərini işdən çıxardı - Yeni təyinat



***Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azneft" İstehsalat Birliyində (İB) kadr dəyişikliyi olub.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə SOCAR-ın prezidenti Rövşən Nəcəf əmr imzalayıb. Əmrə əsasən, Şahmar Hüseynov İstehsalat Birliyinin baş direktoru vəzifəsindən azad edilib.

Onun əvəzinə "Umid Babək Əməliyyat Şirkəti"nin Azərbaycandakı filialının direktoru Əli Qurban oğlu Qurbanov "Azneft" İB-yə yeni baş direktor təyin edilib.

2011-ci ildən başlayaraq SOCAR-ın baş ofisində neftin, qazın hasilatı və nəqli üzrə vitse-prezidentin neft-qaz hasilatı üzrə müavini vəzifəsində fəaliyyət göstərib.

Qeyd edək ki, Ş.Hüseynov 2019-cu ilin dekabr ayından Birliyə rəhbərlik edirdi.

11_27 IYUl-QARA.qxd 3/29/2024 11:09 AM Page 11



# 2023-cü ildə Balakən rayonunun demoqrafik göstəriciləri

***Əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında 2024-cü il yanvar ayının 1-i vəziyyətinə hesablanmış əhalinin sayı 100689 nəfər təşkil etmişdir. Əhalinin 15836 nəfərini və ya 15,7 faizini şəhər, 84853 nəfərini və ya 84,3 faizini kənd sakinləri, 49537 nəfərini və ya 49,2 faizini kişilər, 51152 nəfərini və ya 50,8 faizini isə qadınlar təşkil edir. Bir kvadrat kilometrə əhalinin sıxlığı 107 nəfər olmuşdur.***

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Yanvar-dekabr ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
| | 2023 | 2022 | artım (+) azalma (-) | 2023 | 2022 | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 469 | 528 | -59 | 4,6 | 5,3 | 83,0 |
| Doğulanlar | 1057 | 1143 | -86 | 10,5 | 11,5 | 88,7 |
| Ölənlər | 588 | 615 | -27 | 5,9 | 6,2 | 93,5 |
| Nikahlar | 498 | 591 | -93 | 5,0 | 5,9 | 89,8 |
| Boşanmalar | 187 | 120 | +67 | 1,9 | 1,2 | 158,3 |

2023-cü ildə rayon üzrə 1057 doğulan körpə qeydə alınmış və 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11,5-dən 10,5-ə düşmüşdür. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 54,5 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 45,5 faiz olmuşdur.

2023-cü ildə rayonda 588 ölüm halı qeydə alınmış və 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,2-dən 5,9-a düşmüşdür.

2023-cü il ərzində rayonda 498 nikah və 187 boşanma halları qeydə alınmışdır. 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayı 5,9-dan 5,0-dək azalmış, boşanmaların sayı isə 1,2-dən 1,9-dək artmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov***



2023-cü ildə Balakən rayonunun demoqrafik göstəriciləri

Əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında 2024-cü il yanvar ayının 1-i vəziyyətinə hesablanmış əhalinin sayı 100689 nəfər təşkil etmişdir. Əhalinin 15836 nəfərini və ya 15.7 faizini şəhər, 84853 nəfərini və ya 84.3 faizini kənd sakinləri, 49537 nəfərini və ya 49.2 faizini kişilər, 51152 nəfərini və ya 50.8 faizini isə qadınlar təşkil edir. Bir kvadrat kilometrə əhalinin sıxlığı 107 nəfər olmuşdur.

Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Yanvar-dekabr ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
| | 2023 | 2022 | artım (+) azalma (-) | 2023 | 2022 | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 469 | 528 | -59 | 4.6 | 5.3 | 83.0 |
| Doğulanlar | 1057 | 1143 | -86 | 10.5 | 11.5 | 88.7 |
| Ölənlər | 588 | 615 | -27 | 5.9 | 6.2 | 93.5 |
| Nikahlar | 498 | 591 | -93 | 5.0 | 5.9 | 89.8 |
| Boşanmalar | 187 | 120 | +67 | 1.9 | 1.2 | 158.3 |

2023-cü ildə rayon üzrə 1057 doğulan körpə qeydə alınmış və 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11.5-dən 10.5-ə düşmüşdür. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 54.5 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 45.5 faiz olmuşdur.

2023-cü ildə rayonda 588 ölüm halı qeydə alınmış və 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6.2-dən 5.9-a düşmüşdür.

2023-cü il ərzində rayonda 498 nikah və 187 boşanma halları qeydə alınmışdır. 2022-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayı 5.9-dan 5.0-dək azalmış, boşanmaların sayı isə 1.2-dən 1.9-dək artmışdır.

Balakən Rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov

# Qalmaqallı sabiq birinci müavinlə bağlı bitməyən ittihamlar

## İkram Vəliyev nümunəsi: bölgələrdə məmur biznesi vətəndaşları necə narazı salır?

***Bu yaxınlarda Göyçay rayon Ləkçılpaq kəndinin bir qrup sakini rayon icra hakimiyyəti başçısının keçmiş birinci müavini İkram Vəliyevin onlara külli miqdarda zərər vurduğunu iddia ediblər.***

Sözügedən şəxslər - Kərimov Afiq Ağamusa oğlu, Kərimov Orxan Əhəd oğlu və Xəlilov Şahid Ziyəddin oğlu ölkə KİV-lərinə ünvanlanmış şikayətlərində bildiriblər ki, onlar şərik olublar və 10 noyabr 2023-cü il tarixində hər biri 12-13 kiloqram olan 3 min 880 yeşik xurmanı İkram Vəliyevin direktoru olduğu İsmayıllı rayonunun Qubaxəlilli kəndində yerləşən soyuducu anbara təhvil veriblər. Sitat: "Razılaşmaya əsasən, 2024-cü ilin 15 yanvar tarixinə kimi məhsulumuzun soyuducu anbarda saxlanılması üçün əvvəlcədən 8 min manat pulu ödədik. Dekabrın sonuna kimi meyvənin müəyyən hissəsini soyuducu anbardan götürüb satdıq. Ancaq 2024-cü il yanvarın 3-də bizə məlum oldu ki, 34 min manat dəyərində məhsulumuz soyuducu anbarda baş vermiş nasazlığa görə xarab olub. İkram Vəliyev bizə vurduğu ziyanı ödəmək istəmir".



Sakinlərin iddiasına görə, onlar həmin meyvələri sakinlərdən alıblar ki, satıb gəlir əldə etsinlər və eyni zamanda sakinlərin pulunu ödəsinlər: "İndi isə İkram Vəliyevin özbaşınalığına görə kənd sakinlərinə borclu qalmışıq. Pulu ödəyə bilmirik, hər gün evimizə borc sahibləri gəlir. Artıq həyatımızdan bezmişik".

İkram Vəliyev isə "Yeni Avaz"a açıqlamasında haqqındakı iddiaların həqiqəti əks etdirmədiyini deyib: "Həmin soyuducu anbar direktoru olduğum "Kənd" MMC-yə məxsusdur. Bu il istifadəyə verilib. Sözügedən şəxslər məhsullarını götürüb Rusiyaya aparıblar. O məhsulun sərhəddən keçməsinə dair müvafiq sənədlər də var. Deyirlər ki, gedib Rusiyada ziyan eləmişik. Mən kiminsə malını Rusiyada satan deyiləm. Hazırda soyuducuda nə qədər yararsız məhsulu varsa dəyərini ödəməyə hazırıq. Onlar iddia edirlər ki, mənimlə tanışdırlar və məhsulu mənimlə razılaşaraq anbara yerləşdiriblər. Amma bu belə deyil. Onlar anbarın müdiri ilə razılaşıb məhsullarını oraya qoyublar, sonra da gəlib götürüblər. Anbarda cəmi 90 yeşik malları qalıb. Müddət də başa çatıb. İndi gəlib götürmürlər ki, guya bizə görə zərər ediblər".

Məsələ ilə bağlı DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan isə məsələ ilə bağlı araşdırmaların davam etdirildiyi bildirilib: "Araşdırmanın nəticəsindən asılı olaraq əmələ hüquqi qiymət veriləcək".

İnternet üzərindən aparılan araşdırmalardan aydınlaşıb ki, İ.Vəliyev hələ icra başçısının birinci müavini olarkən qeyri-rəsmi şəkildə biznes fəaliyyəti ilə məşğul olub və həmin vaxt da ondan kifayət qədər şikayətlər səsləndirilib. Məsələn, ötən ilin fevralında ölkə mediasında sabiq birinci müavinin qardaşı oğlu Sabir Vəliyevlə əlbir olub vətəndaşlardan aldıqları məhsulların pulunu ödəmədiyinə dair xəbərlər yayılıb. Bu barədə rayon sakinlərinin manset.az-a müraciətlərində bildirilib: "Həyətimizin məhsulu olan xurma meyvəsini icra başçısının müavini İkram Vəliyevin tapşırığı əsasında onun qardaşı oğlu Sabir Vəliyevə yığıb vermişik.Sabir Vəliyev həmin xurma məhsulunu Əli adlı Biləsuvar sakininə nağd pula satsa da bizim pulumuzu indiyə qədər ödəmir.Hansı ki, Əli adlı Biləsuvar sakini bizə bildirib ki, mən Sabir Vəliyevə məhsulun pulunu vermişəm.Təkcə bu mövsümdə onlardan 700.000 manatlıq məhsulu ödənişlə almışam.

İcra başçısının birinci müavini İkram Vəliyev bizi çağırıb xurma meyvəsini qardaşı oğlu Sabir Vəliyevə yığıb verməyi bildirsə də indi pulumuzu vermək istəmir.

Onu da qeyd edək ki, İkram Vəliyev meyvə tədarükü üçün Göyçay rayonunun Qarabaqqal kəndində özünə böyük bir anbar alıb.

İkram Vəliyevin qardaşı oğlu ilə əlbir olub bizdən aldıqları malların siyahısı belədir:

1) Kərimov İlyas Baxış oğlundan 7950 (yeddi min doqquz yüz əlli) manatlıq,

2) Səmədov Saleh Yaqub oğlundan 4350 (dörd min üç yüz əlli) manatlıq,

3) Əmrahov Rəhman Qədir oğlundan 1000 (min) manatlıq

4) Şıxəliyev Aqil İxtiyar oğlundan 4500 (dörd min beş yüz) manatlıq,

5) Şıxəliyev Elçin İnqilab oğlundan 3700 (üç min yeddi yüz) manatlıq xurma məhsulu..."

Hətta etiraz olaraq aclıq aksiyasına başlamaq niyyətində olduqlarını deyən şikayətçilər ölkə rəhbərliyindən İ.Vəliyev barədə ölçü götürülməsini də xahiş eləmişdilər.

Qeyd edək ki, qanunvericiliyə əsasən, Azərbaycanda məmurların biznes fəaliyyəti ilə məşğul olması qadağandır. Lakin reallıq ondan ibarətdir ki, əksər post sahiblər vəzifədə olarkən qeyri-rəsmi şəkildə, yaxınlarının, himayə etdikləri şəxslərin adına biznes və sahibkarlıq subyektləri yaradır, əllərindəki imkanlar və imtiyazlar hesabına bu biznesi böyüdür, genişləndirirlər. Nəticədə onlar yenə də qeyri-rəsmi şəkildə ciddi varidata sahib olduqları halda, bunun əziyyətini sadə insanlar çəkirlər. Elə yuxarıda haqqında danışdığımız şikayətlər də məmur biznesinin vətəndaşları necə incitdiyinin, narazı saldığının bariz nümunəsi sayıla bilər...

***Sənan Mirzə***

11_27 IYUI-QARA.qxd 3/29/2024 11:09 AM Page 12



## 5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Terrorizmlə mübarizədə vətəndaşlar milli dövlətçilik naminə birlik nümayiş etdirməlidirlər

### Arzu Nağıyev: "Terrorun arxasında duran qüvvələrin əsas məqsədi də məhz siyasi hakimiyyəti xalqın gözündən salmaqdır"



***Rusiyada baş vermiş terror hadisəsi hər bir cəmiyyətdə dövlətin təhlükəsizliyinin və milli maraqların hər şeydən üstün tutulmasının vacibliyini bir daha ortaya qoydu. Artıq ictimai və dövlət maraqlarının müdafiəsi müasir dövrün ən mühüm şərtlərindən birinə çevrilib. İnternetin azad olduğu bir dövrdə bu, hər bir vətəndaşın qarşısında duran mühüm məsələlərdəndir.***

Yəni, hər bir vətəndaş kimliyindən asılı olmayaraq dövlətin, ictimaiyyətin maraqlarını üstün tutmalı, ictimai sabitliyi pozmaq istəyən şəxslərə qarşı dövlət maraqlarından çıxış etməlidir. Dövlətin maraqlarının qorunması məsələsində fəallıq nümayiş etdirərək onları terrora sürükləyən radikal qrupların təsirindən qorumalıdır. Azərbaycanda da zaman-zaman bəzi qüvvələr müəyyən anti-Azərbaycan dairələrinin sifarişi ilə ölkədə ictimai sabitliyi pozmağa, dövlət maraqlarına qarşı çıxmağa cəhd göstərsə də buna nail ola bilmədilər. Dövlətin və vətəndaşların sayıqlığı nəticəsində onların iç üzü ortaya çıxdı. Buraya 2016-cı il noyabrın 16-da Sabunçu rayonunun Nardaran qəsəbəsində dini radikal qruplaşmanın vətəndaşları dini radikalizmə sürükləmək cəhdlərini misal çəkmək olar. Hüquq-mühafizə orqanları əməkdaşlarının sayıqlığı nəticəsində bu təxribatın qarşısı alındı, 27 nəfərlik radikal dini qruplaşma zərərsizləşdirildi. Həmin vaxt zərərsizləşdirilən radikal qruplaşma üzvlərinin bir qrup tərəfdaşı Nardaran sakinləri arasında anti-Azərbaycan təbliğatı aparmaqla xalqı dövlətdən narazı salmağa, ara qarışdırmağa, Nardaranda xaos yaratmağa cəhd etdi. Amma prezident İlham Əliyevin tapşırığı ilə Nardaran qəsəbəsində əsaslı yenidənqurma işlərinə başlandı və qısa müddətdə Nardaran tanınmaz dərəcədə dəyişdi. Nardaranlıların heç bir sosial problemi qalmadı.

2018-ci ildə yenidən fəallaşan anti-Azərbaycan qüvvələri Suriyada və digər ölkələrdə radikal dini qruplaşmalarda təlim keçən bir qrup radikal şəxs Gəncədə dinc sakinlərə hücum etdi, iki polis zabitini qətlə yetirdi, radikal dini qruplaşma üzvü Yunis Səfərov adlı şəxs Gəncə şəhər İcra Hakimiyyəti başçısına qarşı sui-qəsd etdi. Onlar gəncəliləri ələ almağa və öz tərəfdarları sırasına qatmağa cəhd etsələr də, gəncəlilər həmin şəxslərin niyyətini əvvəlcədən anlayaraq dövlətçilik maraqlarını üstün tutub həmin radikallara qarşı birləşdi. Dövlət xalqın yanında olduğu üçün xalq da həmişə dövlətin yanında oldu və dövlətçiliyə qarşı çıxan, ölkədə təxribata cəhd edən həmin radikallar zərərsizləşdirildi. Bu faktlar bir daha onu göstərdi ki, dövlətimizə qarşı təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Vətəndaşlar sayıqlıq göstərərək milli dövlətçilik naminə birlik nümayiş etdirməlidirlər.

Millət vəkili Arzu Nağıyev "Unikal"a bildirib ki, dünyada və regionda baş verən münaqişələr zamanı öz siyasətini müstəqil həyata keçirən dövlətlərə qarşı terror aktları qaçılmaz olur. Deputat deyir ki, bu zaman belə dövlətlərdə təxribat və münaqişə yaratmaq cəhdləri olur. A. Nağıyev deyir ki, Rusiyada baş vermiş terror aktında çoxsaylı insan itkisinin olması terroru sifariş verənlərin həmin ölkənin vətəndaşlarını siyasi rəhbərliyin dövləti idarə etmək iqtidarında olmadığına, eləcə də xüsusi xidmət orqanlarının əməliyyata nəzarət edə bilməməsinə inandırmaq istəyindən xəbər verir. Deputat deyir ki, terrorun arxasında duran qüvvələrin əsas məqsədi də məhz siyasi hakimiyyəti xalqın gözündən salmaqdır.

"Burada əsas məqamlardan biri vətəndaşların bu məsələyə münasibəti olmalıdır. Sosial şəbəkələrdə terror hadisəsindən fikiri yönəltmək cəhdləri hiss olunur. Ona görə də vətəndaşlar ayıq-sayıq olmalıdır. Heç bir hadisə səbəb və məqsədsiz baş verə bilməz. Bunun üçün təhlil qabiliyyəti, analiz düşüncəsi olan şəxslərin, politoloqların fikirləri ictimaiyyətə çatdırılmalıdır. Azərbaycanda çox ciddi terror hadisəsinin qarşısı alınıb. Azərbaycan 44 günlük müharibədən və lokal antiterror əməliyyatından sonra öz ərazi bütövlüyünü təmin etdi. Hazırda Azərbaycan dinc quruculuq işləri ilə məşğuldur. Həmçinin sülh müqaviləsinin imzalanması üçün tədbirlər görür. Amma bunun marağında olmayan qüvvələr var, hansı ki, illərdir bu münaqişədən bəhrələnmək istəyənlər sülhün əleyhinədir. Ona görə də vətəndaşlar xüsusi xidmət orqanlarının yanında olmalı, dövlətçiliyimiz əleyhinə aldıqları məlumatı dərhal aidiyyatı qurumlara çatdırmalı, ölkəmizdə sabitliyi pozmağa sürükləyən zərərli sosial şəbəkə hesablarından uzaq durmalı, şirinlikləndirici təkliflərə uymamalıdırlar" deyə, Arzu Nağıyev bildirib.

Qeyd edək ki, Rusiyada "Crocus City Hall"da törədilən terror aktı nəticəsində ölənlərin sayı 139-a çatıb. Bu barədə martın 25-də Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin Rusiya Prezidenti Vladimir Putinin terror aktı ilə bağlı iclasında bildirib.

*Gülayə Mecid*

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Əqli Mülkiyyət Agentliyi ötən il 2 milyon manata yaxın gəlir əldə edib

***Əqli Mülkiyyət Agentliyi ötən il 1 milyon 902 min 473 manat gəlir əldə edib.***

"Report" xəbər verir ki, bu barədə qurumun 2023-cü ilə dair hesabatında qeyd edilib.

Bildirilib ki, hesabat ilində agentliyin "Dövlət rüsumu haqqında" qanununda nəzərdə tutulan xidmətləri göstərdiyinə və hüquqi hərəkətləri həyata keçirdiyinə görə dövlət büdcəsinə 224 min manat dövlət rüsumu köçürülüb.

Agentlik qanunvericiliklə müəyyən edilmiş xidmətlərin göstərilməsinə və digər işlərin görülməsinə görə 2023-cü ildə daxil olan xidmət haqlarının məbləği 4 milyon 760 min 875 manat, xərclər isə 2 milyon 858 min 402 manat olub. Beləliklə, Əqli Mülkiyyət Agentliyinin gəlirləri 1 milyon 902 min 473 manat təşkil edib. Bu da 2022-ci illə müqayisədə 237 min 826 manat çoxdur.

## Elektromobillərin qiymətləri ucuzlaşa bilər

***Elektrik avtomobilləri üçün dünyanın ən böyük akkumulyator istehsalçısı - Çinin CATL şirkəti bu il akkumulyatorların qiyməti-ni 50 faizədək ucuzlaşdıracağını iddia edir.***

"Unikal" "The Asia Times" nəşrinə istinadla xəbər verir ki, CATL və digər bazar lideri BYD hazırda Konqoda uşaq əməyi və təhlükəli mədənçilik hesabına başa gələn bahalı və nadir metal olan kobaltdan istifadə etmədən akkumulyator istehsalına başlayıb.

Çin elektrik və hibrid avtomobillər üçün ən böyük bazardır, lakin orada elektrik avtomobillərinə tələbat 2022-ci ildəki 96 faizlik artımdan 2023-cü ildə 36 faizlik artımadək azalıb.

Son vaxtlara qədər elektromobil akkumulyatorlarının istehsalı əsasən litium, nikel, manqan və kobalta əsaslanırdı. İndi isə istehsalında kobaltdan istifadə edilmədiyi üçün bu akkumulyatorlar daha ucuz başa gələcək.

## "Texnika Bank"ın əmlakları təkrar hərraca çıxarılır

***Aprelin 3-də "Bakı Hərrac Mərkəzi" MMC-də ləğv prosesində olan "Texnika Bank" ASC-nin daşınmaz əmlaklarının satışı üzrə təkrar açıq hərraclar keçiriləcək.***

Bu barədə Bankın ləğvedicisi - Əmanətlərin Sığortalanması Fondu (ƏSF) məlumat yayıb.

Söhbət Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, 12A ünvanındakı dəyəri 525 min manat olan 252,6 kv.metrlik, dəyəri 505 min manat olan 251,8 kv.metrlik, dəyəri 542 min manat olan 2 ədəd 270,9 kv.metrlik qeyri-yaşayış sahəsindən gedir. Beləliklə, hərraca çıxarılacaq əmlakların ümumi dəyəri 2,114 milyon manat təşkil edir.



## Bakı meriyasında müşavirə keçirildi - "Lifttəmir" İB ciddi tənqid edildi

***Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə geniş tərkibli müşavirədə çoxmərtəbəli yaşayış binalarında mövcud lift təsərrüfatının vəziyyəti təhlil edilib.***

Bu barədə "Unikal"a Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən məlumat verilib.

Müşavirədə Bakı şəhər "Lifttəmir" İstehsalat Birliyinin fəaliyyəti ciddi tənqid edilib.

Bildirilib ki, martın 26-da Binəqədi rayonunda baş vermiş hadisə ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətində komissiya yaradılıb və hüquqmühafizə orqanları ilə birgə Bakı şəhər "Lifttəmir" İstehsalat Birliyinin fəaliyyətinin hərtərəfli yoxlanılması aparılır.Yol verilən nöqsanlara görə Bakı şəhər "Lifttəmir" İstehsalat Birliyinin direktoru Xalid Ələkbərova şiddətli töhmət elan edilib və Komissiyanın yekun rəyinə əsasən onun tutduğu vəzifədə qalıb-qalmayacağına dair qərar veriləcəyi qeyd edilib. Eyni zamanda "Bakımənzilavtomat" İxtisaslaşdırılmış İstehsalat İdarəsinin rəisi İlham Hüseynov və Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi Elmin Zamanov isə araşdırma müddətində vəzifələrindən kənarlaşdırılıblar. Həmçinin Binəqədi rayon təsərrüfat xidmətlərinin rəhbərlərinə xəbərdarlıq edilərək rayon rəhbərliyinə onların şəxsi məsuliyyət məsələsinə baxılması tövsiyə edilib.

Müşavirədə həm də Bakı şəhərində aparılan abadlıq-quruculuq işlərinin vəziyyəti müzakirə edilib. Bildirilib ki, paytaxtımız son illərdə böyük sayda beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bununla əlaqədar abadlıq-quruculuq işlərinin daha da gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilib və şənbə günü paytax ərazisində geniş iməclik və ağacəkmə aksiyalarının keçirilməsi qərara alınıb.

## Bayramda "Azərpoçt"un xidmətlərindən 400 mindən çox vətəndaş istifadə edib



***Novruz bayramı ilə əlaqədar olaraq 20 - 26 mart tarixlərində növbəli iş qrafiki əsasında işləyən "Azərpoçt" 400 mindən çox vətəndaşa xidmət göstərib.***

"Unikal" "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətə istinadən xəbərinə görə, Bakı şəhəri üzrə poçt, maliyyə və digər xidmətlərdən faydalanan vətəndaşların sayı 28,714, regionlarda isə 369,730 nəfər təşkil edib.

"Elektron kommersiya üzrə 20 minə yaxın əməliyyat icra olunub. Ölkə üzrə çatdırılan onlayn sifarişlərin 70 faizdən çoxu regionların payına düşür ki, bu da "Azərpoçt"un regionlardakı xidmətin keyfiyyətini qaldırması ilə birbaşa düz mütənasibdir", - deyə məlumatda bildirilib.

Qeyd edək ki, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti geniş poçt şəbəkəsi ilə əhaliyə ənənəvi poçt xidmətləri ilə yanaşı, bank hesabı üzrə xidmətlər, elektron ödənişlər, sığorta və digər bu kimi qeyri-ənənəvi maliyyə xidmətləri, eləcə də elektron hökumət və pərakəndə biznes xidmətlərini təqdim edir.

# 2024-cü ildə inflyasiya nə qədər olacaq? - Mərkəzi Bankdan proqnoz

***2024-cü ilə inflyasiya proqnozu (yanvar proqnozu: 5.3%) dəyişməz saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin (İH) faiz dəhlizinin parametrlərinə dair məlumatında bildirilib.




Qeyd edilib ki, mövcud şərtlərin dəyişməz qalacağı təqdirdə 2024-cü ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı gözlənilir:

"Təhlillər göstərir ki, ilin qalan dövründə illik inflyasiya proqnozunun azaldılma istiqamətində dəyişdirilməsi ehtimalı var.

Pul siyasətinin yumşaldılması ilə bağlı növbəti qərarlar inflyasiyanın azalma meylinin davamlılığından, xarici və daxili mənşəli təklif və tələb amillərinin dinamikasından asılı olacaq.

Qeyd olunan risklərin reallaşması halında pul siyasətinin ilin qalan dövründə yumşaldılması üzrə pauzanın götürülməsi imkanlarına baxıla bilər. Qarşıdakı dövrdə də makroiqtisadi göstəricilərin və faiz dəhlizinin parametrlərinin faizlərə ötürücülüyü üzrə monitorinq aparılacaq".

Bu ilin yanvar-mart aylarında Azərbaycan Mərkəzi Bankının (AMB) Dövlət Neft Fondu (ARDNF) ilə birlikdə keçirdiyi valyuta hərraclarında 1 milyard 835,8 milyon ABŞ dolları məbləğində satış olub.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 97,6 % (2 dəfəyə yaxın) çoxdur. Təkcə bu ay isə valyuta satışının məbləği 498,3 milyon dollar təşkil edib. Bu isə 1 il əvvələ nisbətən 29,8 % çoxdur.

Azərbaycanın valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir. Məlumatda deyilir ki, 2023-cü ilin yekunu üzrə tədiyə balansının cari əməliyyatlar hesabında ümumi daxili məhsulun (ÜDM) 11,5 %-i səviyyəsində profisit olub.

"Proqnozlara əsasən mövcud meyillərin davam edəcəyi təqdirdə 2024-cü ilin yekunu üzrə də cari əməliyyatlar hesabının profisitli olacağı (yanvar proqnozu: 7-8 milyard ABŞ dolları) gözlənilir. Bununla yanaşı fevralda depozit dollarlaşmasının azalmaqda davam etməsi yığım vasitəsi kimi manata inamın qorunduğunu göstərir. Belə ki, fevralda maliyyə sektoru çıxılmaqla hüquqi və fiziki şəxslərin depozitlərinin dollarlaşması səviyyəsi yanvar ayına nəzərən 1,3 faiz bəndi, ötən ilin fevral ayı ilə müqayisədə isə 9 faiz bəndi azalıb", - deyə AMB bəyan edib.

# Göz şişir, qızarır, yaşarır... - Oftalmoloqdan çağırış

***Göz şişir, qızarır, yaşarır... - Oftalmoloqdan ÇAĞIRIŞ: Xəstə vicdanlı olmalıdır ki, xəstəliyi...***



Mart ayının gəlməsi ilə bir çox xəstəliklər yayılır, bakteriyalar oyanır. Son günlər əksəriyyət göz infeksiyasından əziyyət çəkir. Belə ki, onlar gözlərinin şişdiyini, qızardığını və yaşardığını iddia edirlər.

Bu xəstəliyin adı nədir? Bundan necə qoruna bilərik?

Oftalmoloq Aynurə Əliyeva Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, fəsil dəyişikliyi olduqda, xüsusən yaz və payız aylarında orqanizmdə avitaminoz baş verir. Onun sözlərinə görə, bu səbəbdən immunitet zəifləyir. Nəticədə, ətrafda olan bakteriya və viruslar orqanizmə daha çox təsir edib xəstəliklərə yoluxdurur:

"Bir də gigiyena və izolasiya qaydalarına əməl etmədikdə belə hallar baş verir. Məsələn, qrip olan şəxs maska taxmır, iş yerində digərlərinin əşyalarından da istifadə edirlərsə, xəstəliyin yayılmasına səbəb olurlar".

Həkim bildirib ki, gözlərin şişməsi, qızarması, yaşarması, hətta irinli ifrazatla yapışması konyuktivit (gözün ön səthinin iltihabı) əlamətləridir: "Konyuktivitlər virus mənşəli olduqda daha az sıçrayışla yayılır, 14-21 gün arasında gec sağalır, yoluxucu olur, hətta ağırlaşma halları baş verir. Bakterial konyuktivit isə immunitetin zəifləməsi fonunda yaranır. Yəni havada, əldə, kirpik diblərində olan bakteriyalar immunitet zəiflədiyi üçün aktivləşib xəstəlik törədirlər. Viruslu konyuktivitlər müqayisədə bu az yoluxur. Lakin hər iki növdə gözdə qızartı, sulanma, şişkinlik, bəzən irinli, selikli ifrazat olur".

Müsahibimiz qeyd edib ki, virus mənşəli konyuktivit daha keçicidir: "Ona görə virus mənşəli konyuktivitdən əziyyət çəkən insanlara izolasiya olunmağı, qətiyyətlə gigiyena qaydalarına riayət etməyi, şəxsi əşyaları ayırmağı, evdə körpə uşaq varsa, yaxınlaşmamağı məsləhət görürük. Bu insanlar istifadə etdiyi pambığı belə ortalıqda qoymamalı, yastıq üzlərini tez-tez dəyişməlidirlər".

Oftalmoloq dərman tədbiq etdikdə qablaşmanın gözə toxunmamasını tövsiyə edir: "Eynək istifadə edənlərə bu mərhələdə eynəyi yumağı məsləhət görürük. Linza istifadəçiləri konyuktivitə yoluxublarsa, xəstəlik zamanı istifadə etdikləri linza artıq yararsız sayılır".

A.Əliyeva vurğulayıb ki, xəstə vicdanlı olmalıdır ki, özündə olan xəstəliyi digərlərinə yoluxdurmasın. Onun sözlərinə görə, qorunmaq üçün xəstə şəxsin əşyalarından istifadə etməmək lazımdır: "Xüsusən xanımlar makiyaj etdirmək üçün salona getdikdən sonra yoluxurlar. Çünki istifadə olunan kosmetik vasitələr təmiz olmur, saxlanma qaydalarına riyət edilmir. Və yaxud həmin salona gedən kimsə konyuktivitə yoluxub və ona istifadə edilən vasitələr sizə də tədbiq edilib. Belə hallarla tez-tez rastlaşırıq. Ona görə hər şey individual olmalıdır. Xüsusən xanımlar gözə vurulan karandaşa, pomadaya belə diqqət etməlidirlər".

11_27 IYUI-QARA.qxd 3/29/2024 11:10 AM Page 14



# Magistraturaya qəbul üçün qeydiyyat başladı

***Dövlət İmtahan Mərkəzi 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün qeydiyyat elan edib.***

Bu barədə "Unikal"a Mərkəzdən məlumat verilib. Qeyd olunub ki, magistraturaya qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün bakalavrların ərizə qəbulu aprelin 8-i saat 23:59-dək internet vasitəsilə aparılır. Bu ilin fevral ayında keçirilmiş qəbul imtahanında iştirak etmək üçün sənəd verən bakalavrlar imtahanın ikinci cəhdində iştirak etmək istədikləri təqdirdə "Şəxsi kabinet"lərinin hesabına imtahanda iştirak haqqını əlavə edib Mərkəzin internet saytının müvafiq səhifəsinə (//www.e-gov.az/az/services/read/3148/0?tqdk_xdm=108) daxil olmaqla qeydiyyatdan keçirlər.




İlk imtahanda iştirak etmək üçün qeydiyyatdan keçməyən bakalavrlar da bu imtahana yazıla bilərlər. Həmin şəxslər Mərkəzin internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra (şəxsi kabineti olmayanlar) ərizə vermək üçün tələb olunan məbləği "Şəxsi kabinet"lərinin hesabına əlavə edirlər. Hesaba məbləği əlavə etmək üçün ödəniş üsulları ilə epayment.dim.gov.az internet səhifəsində tanış olmaq mümkündür. Bu bakalavrlar da //eservices.dim.gov.az/erizemag/erize2 səhifəsinə daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurur və təsdiq edirlər (etdirirlər). Ərizəsini təsdiq etmiş (etdirmiş) bakalavrlar imtahana qeydiyyatdan keçmiş hesab olunurlar.

Azərbaycan Respublikasında yerləşən ali təhsil müəssisələrini bitirən və Azərbaycan Respublikasının vətəndaşı olan bütün bakalavrlar, həmçinin Elm və Təhsil Nazirliyi tərəfindən verilən, ixtisasın tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini təsdiq edən sənədləri olan xarici ölkələrdə ali təhsil almış və müvafiq məlumatları "Azərbaycan Respublikası ərazisində tanınan və ekvivalentliyi müəyyən edilmiş (nostrifikasiya olunmuş) xarici dövlətlərin ali təhsil müəssisələrinin diplomlarının sahibləri barədə məlumat bazası"nda olan şəxslər qəbul imtahanında iştirak etmək üçün ərizə qəbulu müddətində Mərkəzin rəsmi internet saytında "Bakalavrın elektron ərizəsi"ni doldurmalı və özləri təsdiq etməlidirlər. Diplom haqqında məlumatları bazada olmayan şəxslər ilk növbədə müvafiq quruma müraciət edib onları sistemə əlavə etdirməli, sonra isə "Bakalavrın elektron ərizəsi"ni təsdiq etməlidirlər.

Digər bakalavrlar qeyd olunan müddət ərzində sənədlərini Mərkəz tərəfindən yaradılmış Sənəd Qəbulu Komissiyasına (Bakı şəh., Nəsimi ray., Akademik H.Əliyev küç., 299) şəxsən təqdim etməklə ərizələrini təsdiq etdirməlidirlər. Magistraturaya qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirilir.

Magistraturaya qəbul imtahanının ikinci cəhdi 2024-cü il aprelin 28?də keçiriləcək. İmtahanda bakalavrlara Məntiqi təfəkkürün yoxlanılması üçün 50 (o cümlədən açıq tipli 5), İnformatika üzrə 25 (o cümlədən açıq tipli 5) test tapşırığı, Xarici dil üzrə isə 20 (o cümlədən açıq tipli 2) test tapşırığı və yazı işi (esse) yerinə yetirmək üçün mövzu təqdim olunacaqdır.

İmtahanda bakalavrın hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir, esse maksimum 5 balla qiymətləndirilir. Beləliklə, imtahanda əldə oluna bilən maksimal nəticə 100 baldır.

Qəbul imtahanında test tapşırıqlarının cavablandırılmasına 3 saat, yazı işini (esseni) yerinə yetirmək üçün isə 30 dəqiqə, cəmi 3 saat 30 dəqiqə vaxt ayrılır. 3 saat bitdikdən sonra bakalavrlardan Cavab kartları yığılır və onlara yazı işini yazmaq üçün xüsusi Esse vərəqləri paylanılır.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına və jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən və qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra Mərkəz tərəfindən elan edilən müddətdə qabiliyyət imtahanı verməlidirlər.

İxtisaslaşma seçiminə qəbul və qabiliyyət imtahanlarında göstərdikləri nəticə Mərkəz tərəfindən Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən müsabiqə şərtlərinə uyğun olan bakalavrlar buraxılırlar. Magistraturaya qəbul olmaq üçün ixtisaslaşma seçimi qəbul və qabiliyyət imtahanlarının nəticələri elan olunduqdan sonra DİM tərəfindən elan olunan müddətdə aparılır. İxtisaslaşma seçimi "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" ilə tənzimlənir (həmin cədvəl "Magistr" jurnalının növbəti sayında dərc ediləcəkdir).

# Sinəsini Vətənə sipər edən oğul



***44 günlük haqq savaşımızda 30 illik torpaq həsrətinə öz can, qanı bahasına son qoyub ölümsüzlüyə qovuşan qəhrəmanlardan söz düşəndə İlqar Natiq oğlu Zeynalovun adı iftixarla çəkilir. 1989-cu ildə Cəlilabad rayonu, Zopun kəndində anadan olan bu, Vətən sevdalısı odlu-alovlu müharibə meydanında son damla qanına qədər yağı ilə döyüşüb. Düşmən gülləsinə tuş gələn İlqar "Vətən" deyib əbədiyyət adlı ulduzlu dünyasına qovuşub. Məhz buna görə də ömrünün 31 ilində şərəfli ölümü ilə bütün Azərbaycana qürur gətirib. Həmçinin xalqın qəhrəmanlıq simvoluna dönərək özünə də milyonların ürəyində əzəmətli abidə ucaldıb. Həqiqi məhəbbətlə Vətəninə, doğma torpağına bağlı olan İlqar Zeynalov dövlət tərəfindən ölümündən sonra "İgidliyə" görə, "Vətən uğrunda", Laçının və Suqovuşanın azadlığına görə medallarına layiq görülüb. Həyatsevər, olduqca qeyrətli, təmiz ürəkli şəhidimizin yarımçıq arzularını cücərdəcək üç oğulu doğma Azərbaycanına əmanət qalıb.***

Uşaqlıqdan qəlb dünyası Vətənə sevdalanan İlqar Zeynalov orta məktəbi bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Son dərəcə mərd, cəsur, ağıllı, vətənpərvər gənc olan İlqar buranı 2011-ci ildə yüksək səviyyədə, mükəmməl biliklə başa vurub. Azərbaycan Ordusunun baş leytenantı rütbəsində hərbi hissələrin birində qulluq edib. Vətənin keşiyində durduğu 9 il ərzində bir dəfə də olsun hər hansı nöqsana yol verməyib. Nümunəvi hərbiçi kimi verilən bütün tapşırıqları vaxtında yerinə yetirib, özünə yalnız hörmət qazandırıb. İkinci ən yaxşı xüsusiyyəti tabeliyindəki əsgərlərə, gənc zabitlərə tələbkar yanaşmaqla bərabər, onlara böyük qardaş qayğısı göstərmək olub. Həmişə mənfur düşməndən qisas almaq məqsədilə öyrənib, vacib təlimlərdə fəallıq göstərib. Yüksək peşəkarlığına görə baş leytenant İlqar Zeynalova "Mübariz" postunda xidmət göstərmək tapşırılıb. Bir sözlə o, canından artıq sevdiyi Vətənə vicdanla, qeyrətlə xidmət edib və məqamı gələndə yağıya qarşı amansız olacağına and içib.

İkinci Qarabağ müharibəsi başlanan zaman Vətənin qeyrətli oğulları kimi, baş leytenant İlqar Zeynalov da cəbhə xətində yerini alıb. Talış kəndinin, Suqovuşanın azadlığı uğrunda haqq savaşımızda düşmənin kabusuna çevrilib. Göstərdiyi rəşadət nümunəsi ilə adı dillərə düşüb. Döyüşdən-döyüşə atıldıqca Qarabağın çox yerində üçrəngli bayrağımız dalğalanıb. Ağdərə istiqamətində gedən ağır müharibədə canından keçməklə Vətənə olan əbədi sevgisini ona bildirib. Odur ki, İlqar cismən aramızda olmasa da, adı Vətənlə birgə çəkilir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# 2023-cü ildə Ağdaş rayonun demoqrafik göstəriciləri

***Ötən il rayon əhalisinin sayı 736 nəfər və ya 0,7 faiz artaraq 2024-cü il yanvar ayının 1-i vəziyyətinə 107062 çatıb.***

Rayon əhalisinin 53506 nəfəri kişilər, 53556 nəfəri isə qadınlar təşkil edir. Əhalinin 34278 nəfər (32,0 faizi) şəhər, 72784 nəfəri (68,0 faizi) isə kənd yerlərində yaşayır. 2023-cü ildə rayonda 1316 doğum, 670 ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların sayı 9 nəfəri şəhər, 15 nəfəri kənd yerlərində olmaqla 24 nəfər olmuşdur. Qeydə alınmış bir yaşa qədər ölən uşaqlardan 13-ü oğlan və 11-i qız olub. 2023-ci ildə əhalinin miqrasiya saldosu müsbət 90 nəfər təşkil edib.

11_27 IYUl-QARA.qxd 3/29/2024 11:10 AM Page 15



## Qonşu ölkə Qəzzaya humanitar yardım göndərir

***Ermənistan hökuməti Qəzzaya humanitar yardım edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib. Paşinyan yardım sayəsində 1,5 milyon insanın sosial dəstək, ərzaq və dərmanla təmin olunacağını bildirib.

Qərara əsasən, Daxili İşlər Nazirliyi 56 315 000 min dram dəyərində Qəzzaya yardım daşıyacaq.

## Putin Rusiyanın NATO-dan zəif olduğunu etiraf etdi

***Rusiya NATO ilə döyüşmək fikrində deyil.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Tver vilayətinə səfəri zamanı deyib.

O, bu barədə deyilənləri cəfəngiyat adlandırıb: "Hərbi xərclərdə fərq çox böyükdür. 2022-ci ildə ABŞ hərbi xərclərə 811 milyard dollar, Rusiya Federasiyası isə 72 milyard dollar ayırıb. Bu qədər xərc nisbəti ilə NATO-ya qarşı mübarizə aparacağıq? Bu, sadəcə cəfəngiyyatdır".

## Ermənistan rus sərhədçiləri əvəzləmək üçün qəbul elan etdi

***Xəbər verdiyimiz kimi, Ermənistan Rusiya sərhədçilərini avqust ayının 1-dən etibarən ölkədən çıxaracaq.***

"Unikal" xəbər verir ki, artıq rusların yerinə Ermənistan öz sərhədçilərinin qəbuluna başlayıb.

"Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunları Ermənistan Respublikasının dövlət sərhədinin "Zvartnots", "Baqrataşen" və digər keçid məntəqələrində kiçik zabit vəzifələrinə qəbullar təşkil edir. Xidmətə qoşulmaq üçün ən azı orta təhsilli, erməni və xarici dil (ingilis və ya rus) dilini bilən Ermənistan vətəndaşı olan qadın və müddətli həqiqi hərbi xidmət keçmiş kişi vətəndaşlar müraciət edə bilərlər", - məlumatda deyilir.

*Ağarza Elçinoğlu*

## Tramp seçki öncəsi dini kitabını satışa çıxardı

***Noyabrda ABŞ-də keçiriləcək prezident seçkilərində iştirak edəcək keçmiş ABŞ prezidenti Donald Tramp internet vasitəsilə dini kitab satışına başlayıb.***

"Unikal" xəbər verir ki, keçmiş prezident özünün "Truth" sosial media hesabında yayımladığı videoda seçicilərini sözügedən kitabı almağa çağırıb.

Belə ki, o, paylaşımında bu həftə qeyd olunacaq "Müqəddəs Cümə" və "Pasxa" bayramlarına toxunub: "Müqəddəs Həftəniz Mübarək! Amerikanın yenidən ibadət etməsinə yardım edək. Sizləri "Tanrı ABŞ-ni qorusun" kitabının bir nüsxəsini almağa dəvət edirəm".

Qeyd edək ki, Donald Trampın internet saytında satışa çıxardığı İncil 59,99 (101 manat) dollara satılır.

*Zərifə Nağıyeva*

## Şahramanyan Qarabağda neçə erməninin qaldığını açıqladı

***Bu gün keçmiş Artsax Respublikasının (Azərbaycanın Qarabağ bölgəsi) bütün ərazisində 10-11 erməni qalıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qarabağdakı separatçı rejimin sonuncu rəhbəri Samvel Şahramanyan "Le Figaro" qəzetinə müsahibəsində deyib.

O, Azərbaycanda həbsdə olan ermənilərlə bağlı suala belə cavab verib: "Artsaxın səkkiz keçmiş lideri Bakıda həbsdədir. 2023-cü ilin sentyabrında əsir götürülən daha 7 erməni əsgər də saxlanılıb".

O, Fransadan erməni separatçılarını azad etmək üçün Azərbaycana təzyiq göstərməsini xahiş edib.

*Ağarza Elçinoğlu*

# "Ermənistanda bir hökumət var" - Paşinyan Şahramanyanı hədələdi

***Ermənistan Respublikasında hökumət var və həmin hökumət bu zalda oturub.***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

O, separatçı rejimin sonuncu lideri Samvel Şahramanyanın "Artsax" hökumətinin İrəvanda sürgündə olması ilə bağlı açıqlamasını şərh edib: "Qarabağdan köçmüş bəzi qruplar istər-istəməz Ermənistanın milli təhlükəsizliyinə təhlükə yaradan hərəkət və addımlar atırlar, bəzi hökumətləri mühacirətdə elan edirlər və s. Bəli, Ermənistan Respublikasında hökumət var və bu zalda o hökumət oturub.

Ehtiyac olarsa, müvafiq addımlar atılmalı və müvafiq tədbirlər görülməlidir ki, xarici qüvvələr müəyyən dairələrdən istifadə edərək Ermənistanın təhlükəsizliyinə təhdid yaratmasın. İstər-istəməz cavab vermək lazımdır. O mesajlarla çıxış edənlərin məsuliyyətlə hərəkət etmək imkanı var idi və biz onların bu fürsətlə nə etdiklərini gördük. Bu cür hərəkətlər hökumət tərəfindən reaksiyasız qala bilməz".

Xatırladaq ki, "Le Figaro"nun mühacirətdə dövlət və hökumət varmı sualına Şahramanyan belə cavab verib: "Bəli, İrəvanda sizi qəbul etdiyim binada Artsax Prezidentinin ofisi və məhkəmə və qanunvericilik strukturlarının ofisləri yerləşir. Parlament üzvləri səs vermək üçün buraya toplaşa bilərlər. Oktyabrda mən fərman imzaladım ki, bütün hökumət nazirləri könüllülük əsasında öz vəzifələrində qalsınlar".

*Ağarza Elçinoğlu*

# "Qərb Ermənistandan planlarını həyata keçirmək üçün istifadə edir" - Zaxarova

***Rusiya Xarici Işlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova aprelin 5-də gözlənilən Ermənistan-Aİ-ABŞ yüksək səviyyəli görüşünü şərh edib.***



"Unikal" rus mətbuatına istinadən xəbər verir ki, Zaxarova Vaşinqton, Brüssel və İrəvanın bu görüşlərini "narahatlığa" səbəb olduğunu açıqlayıb.

"Bu cür hadisələr Rusiyada narahatlıq doğurur, çünki ABŞ və Aİ nümayəndələri tərəfdaşlarımıza birbaşa deyirlər ki, onların əsas diqqəti yalnız Rusiyaya qarşıdır. Onlar bunu birbaşa, açıq mətnlə deyirlər", - Zaxarova yazıb.

Rusiyalı diplomat izah edib ki, bu cür görüşlər regionun əksər dövlətlərində narahatlıq doğurur, çünki onlar Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasına yönəlməyib. Əksinə, Zaxarovanın fikrincə, onlar Qərbi son dərəcə dağıdıcı yanaşmaları ilə Cənubi Qafqaza daha da tanıtmaq, eləcə də orada yeni bölücü xətlər yaratmaq və region ölkələrini anti-Rusiya gündəmi ilə getməyə məcbur etmək məqsədi daşıyır.

Bundan əlavə, Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi bildirib ki, belə görüşlərin məqsədi bu region ölkələri ilə Rusiya arasında çoxəsrlik əlaqələri məhv etməkdir. Zaxarova əlavə edib ki, rəsmi Yerevan nədənsə elə göstərir ki, guya nədən danışdığımızı anlamır.

"Axı, bütün dünyanın gözü qarşısında Ermənistan kollektiv Qərbin erməni xalqının köklü maraqlarına tamamilə zidd olan son dərəcə təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevrilir", - deyə Zaxarova yekunlaşdırıb.

*Gülayə Mecid*

# "Rusiya "Crocus" terrorunu əvvəlcədən bilirdi" - Ukrayna kəşfiyyatı

***Rusiya xüsusi xidmət orqanları "Crocus City Hall" konsert zalında gözlənilən terror aktı barədə əvvəlcədən məlumatlı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov bildiri.

"Ən azı 2024-cü il fevralın 15-də Rusiyanın hazırlıqdan xəbəri var idi. Daha çox deyim. Bu məlumat qruplaşmanın Suriyadakı kəşfiyyat idarəsindən ötürülüb. Oradan Moskvaya çatdı. İndi nağıl danışmasınlar ki, hər şey birdən-birə qəribə bir şəkildə reallaşıb", - Budanov qeyd edib.

Onun sözlərinə görə, Kreml yaraqlıların Rusiyaya hara və hansı iki ölkə vasitəsilə gələcəyini bilirdi: "Niyə buna icazə verdilər? Bir neçə variant var: Birincisi, onların adəti üzrə, indi bir neçə məmuru vəzifədən uzaqlaşdırmaq üçün. Başqa bir ehtimal odur ki, onlar həqiqətən baş verəcəkləri qiymətləndirməyiblər. Onlar hər şeydə Ukraynanı günahlandırmaq istəyirdilər", - Budanov bildirib".

Ukrayna hərbi kəşfiyyatının rəhbəri qeyd edib ki, Rusiya hakimiyyəti "Crocus"da baş verənlərlə bağlı öz versiyalarını artıq üç dəfə dəyişib: "Məni şəxsən ittiham edən Patruşev və Bortnikov izahat verdilər və dedilər ki, bütün bunların müəllifi Ukraynadır. Yeri gəlmişkən, biz bu ağrılı məsələyə toxunduğumuza görə, onlar bizim düşmənimiz olsalar da, dinc əhaliyə qarşı terror aksiyalarını kökündən bəyənmirəm".

*Ağarza Elçinoğlu*

11_27 IYUl-QARA.qxd 3/29/2024 11:10 AM Page 16



# "Qarabağ" 11-ci çempionluğu rəsmiləşdirə bilər

***2023/24 mövsümü Misli Premyer Liqasının qalibi bu həftə müəyyənləşə bilər.***

"Unikal" xəbər verir ki, sabah 28-ci turda lider "Qarabağ" Tofiq Bəhramov adına Respublika Stadionunda "Kəpəz"lə qarşılaşacaq. Ağdam təmsilçisi qələbə qazanacağı halda xalını 69-a yüksəldəcək və tarixində 11-ci dəfə Azərbaycan çempionu olacaq.



Qeyd edək ki, 27 turdan sonra "Qarabağ"ın 66, ikinci və üçüncü yerlərdə qərarlaşan "Sabah"la "Neftçi"nin isə 40 xalı var. Qurban Qurbanovun komandasının və onun ən yaxın izləyicilərinin növbəti turda qələbəsi təqdirində çempionatın bitməsinə 8 tur qalmış komandalar arasında xal fərqi yenə 26 olacaq. Bu o deməkdir ki, "Qarabağ" hətta bundan sonra bütün 8 matçda uduzsa, ikinci pillədəki komanda isə bütün oyunlarda qalib gəlsə belə, ağdamlılar liderliyi əldən verməyəcəklər. Ağdam klubu üçün ən pis halda yekunda liderlə ikinci pillə arasında xal fərqi cəmi 2 olacaq (69 və 67).

Bundan başqa, "Kəpəz"lə oyunda mümkün heç-heçə də "Qarabağ"ı çempion edir. Bu halda Ağdam klubunun 67-i xalı olacaq. Sonrakı bütün oyunlarda "atlılar" uduzsa və ikinci pillədəki komanda bütün görüşlərdə qələbə qazansa, yekunda xallar bərabərləşəcək. Azərbaycan çempionatının əsasnaməsinə görə, liderlə ikinci yer arasında xal fərqi bərabər olarsa, qalib şəxsi oyunlardakı göstəriciyə əsasən müəyyənləşir. Bu mövsüm isə "Qarabağ" şəxsi oyunlarda həm "Neftçi"dən (3 oyun, 3 qələbə), həm də "Sabah"dan üstün olub (3 oyun, 2 qələbə, 1 heç-heçə).

Qeyd edək ki, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Kəpəz" - "Qarabağ" matçı martın 29-u, saat 19:00-da başlanacaq. Turun digər oyunlarının təqvimi isə belədir:

29 mart
16:30. "Qəbələ" - "Neftçi"
30 mart
16:30. "Səbail" - "Turan Tovuz"
19:00. "Sabah" - "Zirə"
31 mart
18:00. "Sumqayıt" - "Araz-Naxçıvan"

# "Real" üç futbolçusu ilə razılaşdı

***"Real" futbolçuları Naço və Lukas Vazkeslə yeni müqavilələr imzalamağa hazırlaşır.***

"Unikal" xəbər verir ki, bu barədə AS məlumat yayıb. Madrid təmsilçisi artıq 24 yaşlı müdafiəçi və 23 yaşlı yarımmüdafiəçi ilə razılığa gəlib. Hər iki müqavilə 2025-ci ilin yayına qədər qüvvədə olacaq.

Həmçinin klubun Toni Kroosla sözləşməni uzatmağı planlaşdırdığı da bildirilib.

Gələn həftə hər üç oyunçu ilə müqavilənin uzadılması ilə bağlı rəsmi açıqlama gözlənilir. Bu mövsüm Naço La Liqada 21 oyun keçirib.

Vaskes isə 22 oyunda 1 qol vurub, 2 qolun ötürməsini edib.



# Azərbaycanın 5 ağırlıqqaldıranı dünya kubokunda çıxış edəcək

***Azərbaycanın 5 ağırlıqqaldıranı Tailandın Phuket şəhərində keçiriləcək dünya kubokunda çıxış edəcək.***

"Unikal" xəbər verir ki, onlardan 4-ü kişi, 1-i qadın idmançıdır. Qadınlarda Nazilə İsmayılova (45 kq), kişilərdə isə İsa Rüstəmov, Ömər Cavadov (hər ikisi 73 kq), Əli Şükürlü (102 kq) və Dadaş Dadaşbəyli (109 kq) 31 mart - 11 aprel aralığında baş tutacaq yarışda qüvvələrini sınayacaqlar.

2024 IWF World Cup Phuket Thailand

Qeyd edək ki, Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli son turnirdə 110 ölkədən 466 (235+231) atlet iştirak edəcək.

## Məsut Özilin son görünüşü diqqət çəkdi

***Bir vaxtlar "Real Madrid", "Arsenal", "Fənərbaxça" kimi klublarda çıxış edən məşhur futbolçu Məsut Özil yeni imici ilə diqqət çəkib.***

"Unikal" xəbər verir ki, futbolu buraxdıqdan sonra fitnessə başlayan Özil "Instagram"da yeni foto yayımlayıb. İzləyicilər Məsutu tanımaqda çətinlik çəkiblər.

35 yaşlı keçmiş futbolçunun son görünüşü minlərlə bəyəni toplayıb.

***Zərifə Nağıyeva***

# Azərbaycan gimnastları Fransada Qran-pri turnirinə qatılacaqlar

***Azərbaycan bədii gimnastları martın 30-31-də Fransanın Tiye şəhərində keçiriləcək 35-ci beynəlxalq Qran-pri turnirində iştirak edəcəklər.***

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, qurumun idman direktoru Natalya Bulanova, bədii gimnastika millisinin baş məşqçisi Siyana Vasilevanın rəhbərliyi altında qrup hərəkətləri üzrə komandanın üzvləri Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokina, Ləman Əlimuradova, Zeynəb Hümmətova, eləcə də fərdi gimnast İlona Zeynalova sözügedən yarışa qatılacaqlar.



Milli komandanın xoreoqrafı Akif Kərimli, məşqçi Nigar Musazadə, beynəlxalq dərəcəli hakimlər Yevgeniya Vilyayeva və Nigar Abdusalimova da yarışda ölkəmizi təmsil edəcəklər.



# Millimiz yoxlama oyununda "Qalatasaray"a qalib gəlib

***Türkiyənin İstanbul şəhərində təlim-məşq toplanışında olan basketbol üzrə qızlardan ibarət Azərbaycan millisi növbəti yoxlama oyunlarını keçirib.***

"Report"un məlumatına görə, Evren Alkayanın rəhbərlik etdiyi yığmalar keçirdikləri 8 qarşılaşmanın yalnız birində məğlub olublar.

Yüksək liqa təmsilçisi "Qalatasaray"ın U-16 komandasını (65:54) məğlub edən kollektiv "Emlak Konut"a (54:66) yenilib. U-16 "Besaş"a (82:56), "Bursa Uludağ"a (69:57) qalib gəlib.

U-18 millisi "Besaş" (72:61), "Bursa Uludağ" (84:70) və "İstanbul Allstar" (75:74) klublarındakı həmyaşıdlarını üstələyib.

U-14 isə "Darruşafaka"ya şans verməyib - 78:48.

Qeyd edək ki, komandalar ümumilikdə təlim-məşq toplanışında keçirilmiş yoxlama matçlarında 14 qələbə və 1 məğlubiyyət əldə ediblər.

# "Formula 1"in sahibi MotoGP-ni almağı planlaşdırır

***"Formula 1"in sahibi olan "Liberty Media" MotoGP və WorldSBK motosiklet yarışlarının hüquqlarına sahib olan "Dorna"nı almağa hazırlaşır.***

Bu barədə "The Financial Times" nəşri iddia irəli sürüb. Tərəflər arasında razılaşmanın olduğu da vurğulanıb.

Rəsmi açıqlamanın növbəti ayda veriləcəyi gözlənilir.

# "Borussiya" Terziçin qarşısına şərtlər qoydu

***Dortmund "Borussiya"sının rəhbərliyi baş məşqçi Edin Terziçlə bağlı qərarını verib.***

QOL.az xəbər verir ki, bu barədə "Bild" məlumat yayıb. Mütəxəssisin komandası Bundesliqanın cari mövsümünü ilk "4-lük"də başa vura bilməsə, klub onu istefaya göndərəcək.

Həmçinin Dortmund təmsilçisinin rəhbərliyi Terziçdən Çempionlar Liqasının 1/4 finalında "Atletiko"nu mübarizədən kənarlaşdırmağı da tələb edib. Əgər məşqçi bu tələbləri yerinə yetirə bilsə, klubdakı yerini möhkəmlədəcək.

Xatırladaq ki, Almaniya çempionatının 26 oyundan sonra "Borussiya" 50 xal toplayıb və turnir cədvəlinin 4-cü pilləsində qərarlaşıb.

